7 sentyabr 2022 №65 (1938)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## "İki ölkə arasında əldə edilmiş hər bir razılaşma həyatda öz əksini tapır"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarellanın dəvəti ilə avqustun 31-də Brüsseldən Romaya işgüzar səfər edib.

Sentyabrın 1-də Romada Azərbaycanın İtaliyadakı Səfirliyinin yeni binasının açılışı olub. Prezident İlham Əliyev açılış mərasimində iştirak edib.

Əvvəlcə Prezident İlham Əliyev səfirliyin həyətində ağac əkib. Sonra dövlətimizin başçısı səfirliyin yeni binasının rəmzi açılışını bildirən lenti kəsib.

Daha sonra Azərbaycan Prezidenti yeni binada yaradılan şəraitlə tanış olub. Prezidentin köməkçisi Anar Ələkbərov və Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə dövlətimizin başçısına binada yaradılan şərait barədə məlumat veriblər.

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin fevralında İtaliyaya dövlət səfəri zamanı birinci xanım Mehriban Əliyeva ilə Roma şəhərindəki səfirliyimiz və onun tabeliyində Azərbaycan Mədəniyyət Mərkəzi üçün nəzərdə tutulan bina ilə tanış olub, binanın əsaslı təmiri ilə bağlı tapşırıq və tövsiyələrini veriblər.

Bildirilib ki, ötən əsrin 40-cı illərində inşa edilmiş binanın 1-ci və 2-ci mərtəbələri Azərbaycan Mədəniyyət Mərkəzi, 3-5-ci mərtəbələri isə səfirlik üçün nəzərdə tutulub.

*davamı səh. 2-də*

## "Yaradıcılıq düşərgəsini işğaldan azad edilən bütün bölgələrdə gerçəkləşdirmək istəyirik"

Xəbər verdiyimiz kimi, Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Şuşa İli" ilə bağlı Tədbirlər Planı"nın müvafiq bəndinə əsasən, "Youth ArtCamp Shusha and Baku" ("Şuşa və Bakı gənclər incəsənət düşərgəsi") adlı beynəlxalq layihə həyata keçirildi.




Sentyabrın 4-də Beynəlxalq Muğam Mərkəzində avqustun 26-dan reallaşdırılan layihənin bağlanış mərasimi və yekun sərgisi təşkil olundu.

Sərgidə layihə çərçivəsində Ağdam, Füzuli, Cəbrayıl və Şuşa şəhərlərini ziyarət edən ölkəmizdən və xaricdən 16 rəssamın çəkdikləri rəsmlər yer almışdı.

Tədbirdə çıxış edən mədəniyyət naziri Anar Kərimov layihənin Azərbaycan Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyası, ölkəmizin İspaniyadakı səfirliyi və Andorranın UNESCO üzrə Milli Komissiyasının təşkilatçılığı ilə ərsəyə gəldiyini bildirdi.

Layihənin əhəmiyyətini qeyd edən nazir dedi: "Biz yaradıcılıq düşərgəsini işğaldan azad edilən bütün bölgələrdə gerçəkləşdirmək istəyirik. Bu dəfə layihə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində keçirildi. Ermənistan 30 ilə yaxın işğal altından saxladığı əzəli torpaqlarımızda tarixi-mədəni irsi dağıtsa da, biz Qarabağı yenidən quracağıq. Azərbaycan bölgədə davamlı sülhün yaradılması üçün bütün səylərini səfərbər edir. Şuşanı və Qarabağın digər bölgələrini ziyarət edən rəssamlar təbiətdən ilhamlanaraq öz təəssüratlarını kətan üzərinə köçürüblər. Əminəm ki, burada olarkən rəssamlar Azərbaycan xalqının sülhsevər və qonaqpərvər olduğunun şahidinə çevrildilər. Şadam ki, UNESCO tərəfindən yaradılan bu layihə gələcəkdə Şuşanın beynəlxalq aləmdə daha geniş tanıdılmasına dəstək olacaq".

Daha sonra nazir rəssamlara uğurlar arzuladı.

*davamı səh. 3-də*

## Bakıda V ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçiriləcək

### Müsabiqə proqramına 29 ölkədən 76 film daxil edilib

Sentyabrın 7-dən 11-dək Bakıda V ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçiriləcək. Mədəniyyət Nazirliyinin dəstəyi ilə gerçəkləşəcək builki festivalın devizi "Bir bilet – bir ağac"dır.

Sentyabrın 6-da Nizami Kino Mərkəzində festivalla bağlı mətbuat konfransı keçirildi. Festivalın təsisçisi və direktoru, Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev çıxışında bildirdi ki, Nizami Kino Mərkəzində keçiriləcək builki festival iqlim dəyişikliyinə həsr olunub. Belə ki, bilet satışından əldə olunacaq vəsait işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın bərpası məqsədilə Qarabağ Dirçəliş Fonduna ianə ediləcək.



Təsisçi bildirdi ki, festivalın builki tərəfdaşları Mədəniyyət Nazirliyi, Azərbaycan Kinematoqrafçılar İttifaqı, Qarabağ Dirçəliş Fondu, "Culture Network House Assosiation", Azərbaycan Yaradıcı Sənayelər Federasiyası, Nizami Kino Mərkəzi, "Annecy" Beynəlxalq Animasiya Film Festivalı və digər qurumlardır. V ANİMAFİLM "Azərbaycan Animasiya Assosiasiyası" İctimai Birliyi və "PERİ FİLM" şirkətinin təşkilatçılığı ilə keçiriləcək.

Direktor həmçinin diqqətə çatdırdı ki, bu il festival tamaşaçılara üç əsas proqram təqdim edəcək: müsabiqə, müsabiqədənkənar və peşəkarlar üçün proqramlar.

Festivalın media meneceri Bahar Zeynallı KİV nümayəndələrinin diqqətinə çatdırdı ki, festivala 50 ölkədən 230 film təqdim olunub. Seçim komissiyası müsabiqə proqramına 29 ölkədən 76 film daxil edib. İştirakçılar bir yerli və altı beynəlxalq kateqoriya üzrə mükafatlar uğrunda yarışacaqlar. Bütün seçilmiş filmləri beynəlxalq və uşaq münsiflər heyəti izləyəcək. Uşaq münsiflər heyətinə 22 yerli uşaq, beynəlxalq heyətə isə 6 peşəkar xarici münsif daxil edilib.

*davamı səh. 2-də*

## Mədəniyyət naziri Ağdaşda vətəndaşlarla görüşəcək

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov tərəfindən sentyabrın 23-də saat 10:00-da Ağdaş rayon Heydər Əliyev Mərkəzində Ağdaş, Göyçay, Zərdab və Ucar rayonlarından olan vətəndaşların qəbulu keçiriləcək.

Vətəndaşlar 19 sentyabr tarixinədək nazirliyin info@culture.gov.az elektron poçt ünvanı, (012) 493-74-24 telefon nömrəsi vasitəsilə və "Whatsapp" xidmətinə (077) 714-71-47 müraciət etməklə qəbula yazıla bilərlər.

## Paytaxt payızının caz havası




Mədəniyyət Nazirliyinin dəstəyi ilə 23-30 sentyabr tarixində XVII Bakı Beynəlxalq Caz Festivalı keçiriləcək.

Builki festivalda Azərbaycanla yanaşı, 13 ölkədən (İtaliya, Fransa, Türkiyə, Lüksemburq, Macarıstan, İsveçrə, Norveç, İsrail, Belçika, Niderland, Almaniya, Braziliya, Argentina) tanınmış ifaçılar Bakı payızına caz havası qatacaqlar.

Zəngin proqramı olan festival çərçivəsində Bakı sakinləri və şəhərimizin qonaqları konsertləri ödənişsiz izləmək imkanı qazanacaqlar.

Sentyabrın 23-də Heydər Əliyev Mərkəzinin parkında festivalın açılışı keçiriləcək. Eyni zamanda "QGallery"də sərgi, YARAT-da caz haqqında filmin nümayişi və s. tədbirlər təşkil olunacaq. Səyahət həvəskarı olan cazsevərlər canlı musiqinin sədaları altında "City Jazz Tour" avtobusu ilə paytaxtı gəzəcəklər.

Festivalın proqramına "I am Jazzman!" – caz ifaçılarının ənənəvi müsabiqəsi də daxildir. Bu il müsabiqənin peşəkar münsiflər heyətinə Türkiyə, Fransa və Azərbaycandan olan musiqiçilər daxildir.

Bakı Beynəlxalq Caz Festivalı haqqında ətraflı məlumatı festivalın saytından (www.bakujazzfestival.com) əldə etmək olar.

## Teatrların yeni mövsümü

Ölkəmizdə fəaliyyət göstərən 27 dövlət və 10-dan artıq müstəqil (bir qismi özəl statusla) teatr yeni mövsümə başlamağın həyəcanını yaşayır. Artıq onların bir neçəsi sentyabrın ilk günlərində ənənəvi toplantılarını keçirib, yeni mövsümün açılışı üçün plan-proqramlarını da müzakirə ediblər.

Kimisi repertuarlarındakı ən baxımlı, kimisi ən yeni, kimisi də ənənəvi tamaşaları ilə teatrsevərlərin görüşünə gələcək. Təbii ki, aralarında hələ qərar verməyən, tamaşaçısını intizarda saxlamaq istəyən, daha doğrusu, öz istirahət müddətlərini uzadan da var...

Beləliklə, keçək paytaxtda fəaliyyət göstərən əksər teatrların yeni mövsüm planlaşmasına. Öncə onu deyim ki, ilk iki həftəni hazırlıq-məşq, bərpa tamaşalar üzərində işə həsr edən yaradıcı heyətlər əsas etibarilə sentyabrın 15-dən sonra pərdələrini açacaqlar.

İlk olaraq milli və dünya opera və balet nümunələrini seyrçilərinə daha yaxın etməyə çalışan Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrından başlayaq. Özünün 114-cü mövsümünü ənənəsinə sadiq qalaraq sentyabrın 18-də – Milli Musiqi Günündə (Üzeyir musiqi günü) açacaq yaradıcı heyət həmin gün Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasını nümayiş etdirəcək.




*davamı səh. 5-də*

## "Azərbaycanfilm"in 100 illiyi ilə bağlı tədbirlər planı hazırlanıb

2023-cü ildə C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının yaranmasının 100, kinomuzun isə 125 ili tamam olur. Bu münasibətlə tədbirlər planı hazırlanıb.

2022-2023-cü illəri əhatə edən tədbirlər planında "Azərbaycanfilm"də indiyə qədər istehsal olunan filmlərin bərpası, təbliği və yeni filmlərin istehsalı nəzərdə tutulub. Bundan əlavə, klassik filmlərin posterlərinin, treylerlərinin, ingilis dilində subtitrlərinin hazırlanması, rəqəmsal formata keçirilməsi planlaşdırılır.

Tədbirlər planında "Azərbaycanfilm" – 100: afişalar", "Azərbaycanfilm" – 100: kadr arxasında", həmçinin rekvizit-geyim, eskiz-dekorların sərgisi, dəyirmi masa və konfransların keçirilməsi də öz əksini tapır.




Bununla yanaşı, kinostudiyanın bir əsrlik tarixini, fəaliyyət istiqamətini, həyata keçirdiyi ən uğurlu layihələri əhatə edən bir neçə versiyadan ibarət tanıtım çarxları hazırlanacaq.

Kino ilə bağlı fundamental ədəbiyyatların tərcüməsi və çap olunması, klassik filmlərin ssenarilərinin nəşri, "Azərbaycanfilm" – 100" kataloqunun iki dildə hazırlanıb nəşr edilməsi də nəzərdə tutulub. Həmçinin film istehsalının inkişaf etdirilməsi məqsədilə müsabiqələrin keçirilməsi, ssenari portfelinin formalaşdırılması da planda yer alıb.

Qeyd edək ki, tədbirlər planında tələbələr üçün "Açıq qapı" günü – "Azərbaycanfilm" turu"nun təşkil edilməsi, hər ay bir bölgədə olmaqla seçilmiş 12 bölgədə (Naxçıvan, Gəncə, Şamaxı, Şəki, Quba, Lənkəran, Zaqatala, Biləsuvar, Ağdam, Yevlax, Qazax, Şirvan) "Azərbaycanfilm" – 100" adlı kino həftəsinin keçirilməsi planlaşdırılır.

Türkdilli ölkələrdə və MDB məkanında da "Azərbaycanfilm"in yubileyi ilə əlaqədar tanıtım tədbirlərinin keçirilməsi nəzərdə tutulur.

Muzey eksponatına çevrilən xatirələr



*səh. 6*

Nazirlikdə dünya şöhrətli baletmeyster həmyerlimizlə görüş olub

"Bundan sonra da doğma Azərbaycanı layiqincə təmsil edəcəyəm"

*səh. 2*



"Beynəlxalq Anadolu Günləri"ndə "Azərbaycan otağı"

*səh. 8*

# Romadakı səfirliyimizin tabeliyində Mədəniyyət Mərkəzi yaradılacaq

Prezident İlham Əliyev sentyabrın 3-də Azərbaycanın İtaliyadakı Səfirliyinin tabeliyində Mədəniyyət Mərkəzinin yaradılması haqqında sərəncam imzalayıb.

Mərkəz Azərbaycan Respublikasının daxili və xarici siyasəti, mədəniyyəti, tarixi, sosial-iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə təbliğat işinin genişləndirilməsi məqsədi ilə yaradılır.

Sərəncamda Nazirlər Kabinetinə Mədəniyyət Mərkəzinin fəaliyyətinin təmin edilməsi ilə bağlı zəruri tədbirləri həyata keçirmək tapşırılıb.

# Regionda uzunmüddətli və davamlı sülhə ehtiyac var

Xəbər verildiyi kimi, avqustun 31-də Belçika Krallığının paytaxtı Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçlü formatda növbəti görüş keçirilib.

Şarl Mişel üçtərəfli görüşün yekunlarına dair mətbuata bəyanat verib. Bəyanatda deyilir ki, bu formatda dördüncüsü keçirilən görüşdə Cənubi Qafqazda son hadisələr və Avropa İttifaqı ilə hər iki ölkə arasındakı münasibətlər müzakirə olunub: "Fikir mübadiləlerimiz açıq və məhsuldar keçdi. Buna görə hər iki liderə təşəkkür edirəm. Biz gündəliyimizdəki bütün məsələləri nəzərdən keçirdik. Bizim son görüşümüzdə əldə etdiyimiz razılaşmalar istiqamətində bəzi addımların atıldığını görmək sevindirici haldır. Bu gün biz Ermənistan və Azərbaycan arasındakı dövlətlərarası münasibətləri nizamlayan sülh müqaviləsinin irəliləməsi istiqamətində substantiv işin sürətləndirilməsi ilə bağlı razılığa gəldik və xarici işlər nazirlərinə layihə mətnlərinin hazırlanması üçün bir ay ərzində görüşmək barədə tapşırıq verdik. Biz həmçinin humanitar məsələlər, eləcə də minaların təmizlənməsi, saxlanılan və itkin düşmüş şəxslərin taleyi barədə ətraflı müzakirələr apardıq. Avropa İttifaqı bu məsələlərlə məşğul olmaqda davam edəcək".

İki ölkə arasında sərhədlərin delimitasiyasına dair bütün məsələlərlə bağlı əldə olunmuş irəliləyişləri və sabit vəziyyəti daha yaxşı təmin etməyi nəzərdən keçirdiklərini qeyd edən Ş.Mişel deyib ki, Sərhəd Komissiyasının növbəti iclasının noyabrda Brüsseldə keçirilməsi ilə bağlı razılığa gəlinib. Görüşdə həmçinin nəqliyyat xətlərinin açılması ilə bağlı şərtlərin müzakirəsində əldə olunmuş nəticələr də nəzərdən keçirilib.

Avropa İttifaqı Şurasının Prezidenti bəyanatında hər iki tərəfin əhalisini uzunmüddətli və davamlı sülhə hazırlamağın vacibliyini qeyd edib: "Bu istiqamətdə ictimai mesaj çox əhəmiyyətlidir – bu cür həssas situasiyada digər tərəf ictimaiyyətdə danışılan hər bir sözü, həqiqətən, eşidir və qiymətləndirir. Avropa İttifaqı uzunmüddətli və davamlı sülh istiqamətində öz dəstəyini bundan sonra da göstərməyə hazırdır".

Ş.Mişel bəyanatında həmçinin bu il noyabr ayının sonunda yenidən üçlü formatda görüşməklə bağlı razılığa gəlindiyini də vurğulayıb.

# "Bundan sonra da doğma Azərbaycanı layiqincə təmsil edəcəyəm"

Mədəniyyət naziri Anar Kərimov sentyabrın 6-da görkəmli Belarus baletmeysteri, pedaqoq, SSRİ Xalq artisti, professor, həmyerlimiz Valentin Nikolayeviç Yelizaryevlə görüşüb.



Qonağı səmimi salamlayan Anar Kərimov Valentin Nikolayeviçin bir sənətkar kimi daim bəşəriyyəti narahat edən problemləri açıq şəkildə nümayiş etdirməyə çalışdığını vurğulayıb. Dünya şöhrətli baletmeysterin XX əsr balet sənətində özünəməxsus yerindən danışan nazir onun Azərbaycan və Belarus arasında yaradıcılıq sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə verəcəyi töhfənin əhəmiyyətini qeyd edib.

Nazir Azərbaycan mədəniyyətinin Belarusda, eləcə də dünyada layiqincə tanıdılmasına böyük töhfə verən sənətkara təşəkkürünü bildirib, "Şuşa – 270" döş nişanını təqdim edib.

Yaradıcılığına göstərilən böyük diqqət və qayğıya görə təşəkkürünü bildirən Valetin Yelizaryev bundan sonra da dünyaya göz açdığı doğma Azərbaycanı layiqincə təmsil edəcəyini bildirib.

Anar Kərimov görkəmli baletmeysterə möhkəm cansağlığı və yaradıcılıq uğurları arzulayıb.

# Rusiya ilə mədəni əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu sentyabrın 5-də bu ölkənin mədəniyyət naziri Olqa Lyubimova ilə görüşüb.

Görüşdə Rusiya ilə Azərbaycan arasında münasibətlər, o cümlədən mədəniyyət sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Polad Bülbüloğlu MDB ölkələri Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu İdarə Heyətinin sədri qismində fəaliyyəti, fondun xətti ilə keçirilmiş tədbirlər haqqında nazirə ətraflı məlumat verib.

Görüş zamanı iki ölkənin mədəniyyət nazirlikləri arasında əməkdaşlıq proqramı, beynəlxalq təşkilatlar çərçivəsində mədəni əlaqələrin genişləndirilməsi, beynəlxalq tədbirlər haqqında məlumat mübadiləsi və qarşılıqlı iştirak imkanları, iki ölkənin mədəniyyət müəssisələri arasında birbaşa əlaqələrin qurulması və birgə fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb. Eyni zamanda müştərək kino layihəsinin hazırlanması, Azərbaycan və Rusiya tərəfindən təşkil edilən kinofestivallarda iki ölkənin filmlərinin iştirakı məsələləri də müzakirə olunub.

Bundan əlavə, görüşdə bu ilin noyabr ayında Sankt-Peterburqda təşkil olunacaq Beynəlxalq Mədəniyyət Forumunda ölkəmizin iştirakı, forum çərçivəsində Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi imkanlarına nəzər salınıb.

# "İki ölkə arasında əldə edilmiş hər bir razılaşma həyatda öz əksini tapır"

əvvəli səh. 1-də

Dünyanın ən zəngin tarixi irsinin yerləşdiyi Romada Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyətə başlaması ölkəmizin təbliği istiqamətində atılan ən mühüm addımlardan biridir və dünyada multikulturalizmin beşiyi sayılan Azərbaycanın ən yüksək səviyyədə tanıdılmasına xidmət edir. Birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Azərbaycanın dünya miqyasında tanıdılması istiqamətində mühüm tədbirlər həyata keçirdiyi ölkələr arasında İtaliya xüsusi yerə malikdir. Romada Azərbaycan Mədəniyyət Mərkəzinin fəaliyyətə başlaması ölkəmizin zəngin tarixi-mədəni irsinin tanıdılmasına, Azərbaycan və İtaliya arasında mədəniyyət, elm, təhsil, humanitar sahələrdə daha səmərəli fəaliyyətin həyata keçirilməsinə geniş imkanlar açacaq.



Mədəniyyət Mərkəzinin daxili tərtibatında Azərbaycanın dövlət rəmzlərindən, milli sənətkarlıq elementlərindən, o cümlədən şəbəkədən istifadə edilib. Mərkəzin müxtəlif ekspozisiya zallarında Azərbaycan tarixini əks etdirən eksponatlar təqdim olunur. Mərkəzdə müxtəlif tədbirlərin və görüşlərin keçirilməsi üçün hər cür imkan yaradılıb.



Azərbaycan xalçaları mərkəzdəki ekspozisiyanın ən qiymətli inciləri sırasındadır. Milli xalçaçılığımızın müxtəlif məktəblərinin nümunələrinin təqdim edildiyi mərkəzdə qədimdən xalça və xalça məmulatlarının geniş çeşidi sərgilənir. Burada Azərbaycan xalçaçılıq məktəblərinin tarixi və keçdiyi inkişaf yolları barədə italyan dilində məlumat verilir. Bundan başqa, Azərbaycan miniatürləri, ölkəmizdə qədimdən yaranıb formalaşan rəssamlıq sənəti – miniatür məktəbi barədə ətraflı məlumat verilir. Zinət və müxtəlif bəzək əşyalarının, xalq incəsənətinin bütün istiqamətlərinə dair nümunələrin, taxta üzərində oyma sənətinin təqdim olunduğu mərkəzin ekspozisiyasında Azərbaycan milli geyimləri də diqqəti cəlb edir.

Azərbaycan Mədəniyyət Mərkəzində Heydər Əliyev Fondu tərəfindən italyan dilində nəşr olunmuş ölkəmizin mədəniyyəti, incəsənəti, sənətkarlığı, qayaüstü rəsmlər, miniatür sənəti, milli musiqimiz, zərgərlik məmulatları, xalçalarla bağlı kitablar nümayiş etdirilir. Mərkəzdə həmçinin Azərbaycanın tarixi, mədəniyyəti, ədəbiyyatı, xarici siyasəti ilə bağlı son illər İtaliyada nəşr edilmiş kitablar da təqdim olunur.

Prezident İlham Əliyev mərkəzin açılışı münasibətilə təşkil edilən "Mənim Azərbaycanım" adlı rəsm sərgisi ilə də tanış olub. Sərgidə realizmdən tutmuş modernizm və postmodernizmədək Azərbaycanın təsviri sənətinin nadir nümunələri nümayiş etdirilir.

Binanın səfirlik üçün nəzərdə tutulan iş otaqlarında fəaliyyət üçün hər cür şərait yaradılıb. Görüş otaqlarında Azərbaycan-İtaliya münasibətlərinin ən vacib məqamları, Azərbaycan Respublikası Prezidentinin azad olunmuş ərazilərə səfərləri, İtaliyada Azərbaycanla bağlı dərc olunmuş kitablarla bağlı fotosərgilər yerləşdirilib.

### İtaliyanın beş ali təhsil ocağı ilə əməkdaşlıq

Prezident İlham Əliyev sentyabrın 1-də Romada İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi mərasimində iştirak edib.

İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi – Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi keçirilib.

Sənədlərin mübadiləsindən sonra Prezident İlham Əliyev çıxış edib. Dövlət başçısı deyib: "Bugünkü mərasim Azərbaycan səfirliyinin yeni binasında keçirilir. Onu da deməliyəm ki, bu, yeni binada keçirilən ilk tədbirdir. Romanın tarixi məhəlləsində yerləşən bu tarixi bina bu gün öz qapılarını açır və eyni zamanda, bu binada Azərbaycanın Mədəniyyət Mərkəzi də fəaliyyət göstərəcək.

Mən çox şadam ki, bu binada keçirilən ilk tədbir məhz təhsil sahəsinə aiddir. Bu gün İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi açılır. Təhsil sahəsində biz yeni genişmiqyaslı əməkdaşlığa başlayırıq. İki il bundan əvvəl İtaliyada dövlət səfərində olarkən mən bu təkliflə çıxış etmişdim ki, İtaliya-Azərbaycan Universiteti yaradılsın. İtaliya rəhbərliyi də bunu alqışladı və qısa müddət ərzində artıq biz praktiki fəaliyyətə başlayırıq.

Bu ilin aprel ayında Bakıda ADA Universitetinin kampusunda İtaliya xarici işlər naziri cənab Luici Di Maionun iştirakı ilə yeni tədris korpusunun təməli qoyuldu. İtaliyanın aparıcı universitetləri ilə ADA Universitetinin əməkdaşlığı iki ölkə arasındakı dostluq əlaqələrini möhkəmləndirəcək. Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti, Roma Sapienza Universiteti – bu adlar İtaliyanın kənarında da məşhurdur. Onu da bildirməliyəm ki, İtaliya-Azərbaycan Universitetinin nəzdində iki institut – Kənd Təsərrüfatı və Qida Elmləri İnstitutu və Dizayn və Memarlıq İnstitutu fəaliyyət göstərəcək... Heç kimə sirr deyil ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, bilik, savad, texnoloji tərəqqi müəyyən edir. Biz Azərbaycanda təbii resurslardan əldə edilmiş gəliri insan kapitalına yönəldirik və bugünkü tədbir bunun əyani sübutudur. Eyni zamanda, əminəm ki, İtaliya-Azərbaycan Universiteti İtaliya-Azərbaycan dostluğu mərkəzi olacaq...".

***

Sentyabrın 1-də dövlətimizin başçısı ilə İtaliya Prezidenti Sercio Mattarella arasında görüş olub. İtaliya Prezidenti bu il ölkələrimiz arasında diplomatik münasibətlərin 30 illiyinin qeyd edildiyini bildirib: "Bu səhər Siz Azərbaycan səfirliyinin yeni binasını açdınız. Bu, İtaliya ilə Azərbaycan arasında dostluq əlaqələrinin mühüm nümunəsidir".

Dəvətə və qonaqpərvərliyə görə italiyalı həmkarına minnətdarlığını bildirən dövlətimizin başçısı bu ölkəyə son səfərini xatırlayaraq əldə edilmiş bütün razılaşmaların həyatda öz əksini tapdığını qeyd edib. "Biz keçən dəfə Sizinlə burada görüşəndə strateji tərəfdaşlığa dair mühüm sənəd imzalamışıq. Eyni zamanda, Azərbaycan-İtaliya Universitetinin yaradılması haqqında söhbət etmişik. Bu gün isə İtaliya-Azərbaycan Universitetinin yaradılması istiqamətində önəmli addım atıldı", – deyə Prezident İlham Əliyev vurğulayıb.

Həmin gün Prezident İlham Əliyevin İtaliya Nazirlər Şurasının sədri Mario Draqilə görüşü keçirilib. Görüşdə Azərbaycanın Avropa İttifaqının və İtaliyanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolu xüsusi qeyd edilib. Eləcə də ölkələrimiz arasında iqtisadiyyat, elm, təhsil, mədəniyyət, incəsənət və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu. Həmçinin İtaliya şirkətlərinin işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa-yenidənqurma işlərində fəal iştirak etdiyi vurğulanıb. Söhbət zamanı qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

### Qarabağ və Zəngəzurun zəngin enerji ehtiyatı var

Sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində "The European House – Ambrosetti" beyin mərkəzi tərəfindən "Dünya, Avropa və İtaliyaya baxış" və "Rəqabətli strategiyalar üçün bu günün və sabahın ssenarisi" mövzusunda 48-ci Beynəlxalq Çernobbio Forumu keçirilib.

Prezident İlham Əliyev İtaliya Prezidenti Sercio Mattarella, İtaliya Nazirlər Şurasının sədri Mario Draqi və "The European House – Ambrosetti" beyin mərkəzinin dəvəti ilə beynəlxalq forumda əsas qonaq qismində iştirak edib.

Dövlətimizin başçısı forumun plenar iclasında "Enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın rolu" mövzusunda çıxış edib.

Ermənistanın işğalından azad olunmuş Azərbaycan ərazilərinin enerji imkanları haqqında söz açan dövlət başçısı deyib: "2020-ci ilin Vətən müharibəsində azad etdiyimiz ərazilərdə – Qarabağ və Zəngəzurda külək, günəş və hidroenerji stansiyalarının potensialı 10 qiqavatdan çoxdur. Biz artıq bu mühüm potensialın inkişaf etdirilməsi mərhələsindəyik. Sizə deyə bilərəm ki, biri Səudiyyə Ərəbistanı, biri Birləşmiş Ərəb Əmirliyi və digəri isə Birləşmiş Krallıqdan üç aparıcı enerji şirkəti artıq investisiya yatırır və onlar yenilənə bilən üç enerji stansiyasına yatırım etməyə davam edəcəklər. Bu stansiyaların ümumi gücü 700 meqavatdan çoxdur. Bu, bizə ixrac üçün əlavə qaz tədarük etməyə kömək edəcək. Bu isə bizim ixrac potensialımızı gücləndirəcək".

***

Prezident İlham Əliyev sentyabrın 2-də Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib.

Dövlət başçısının İtaliyaya işgüzar səfəri sentyabrın 2-də başa çatıb.

# Bakıda V ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçiriləcək

əvvəli səh. 1-də

Bundan əlavə, bu il "Tamaşaçı seçimi" müsabiqəsinin qalibi film nümayişləri zamanı izləyicilərin səsverməsinin nəticələri əsasında müəyyənləşəcək. Bütün seçilmiş filmlərə beynəlxalq münsiflər heyəti baxacaq, qaliblər festivalın bağlanış mərasimində elan olunacaq.

B.Zeynallı diqqətə çatdırdı ki, Azərbaycanda dövlət sifarişi ilə ildə 2 animasiya filmi istehsal olunur və bu, olduqca azdır. Festivalın uğurlarından biri də müstəqil studiyaların animasiya filmlərini təqdim etməsidir. Bu il ölkəmizdən festivala 16 film təqdim olunub və proqrama daxil edilib: "Hazırda beynəlxalq aləmdə uşaqların öz ana dillərində animasiya izləməsi zəruri hesab edilir. Bu, onların dili qavramasına və ana dilinə münasibətini formalaşdırır".




Qeyd olundu ki, festivalın ən dəyərli mükafatı Fransada keçirilən "Annecy" Beynəlxalq Animasiya Filmi Festivalına səyahətdir ki, bundan əvvəl birincilik qazanan iştirakçılara bu şans qismət olub. Digər kateqoriyalarda pul mükafatı, planşetlər və keramik heykəlciklər təqdim olunacaq.

Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin əməkdaşı Elşad Əliyev bildirdi ki, nazirliyin "Böyük Qayıdış" müsabiqəsində qalib olan iki animasiya filmindən biri artıq hazırdır, digərinin çəkiliş prosesi davam edir. Nazirliyin həmişə animasiya layihələrinə dəstək olduğunu bildirən E.Əliyev bu mənada ANİMAFİLM festivalını nümunə göstərdi: "Festival dünya kinosunda sənət meyarı hesab olunur. Sevindirici haldır ki, Azərbaycanda da festival ənənəsi formalaşıb. ANİMAFİLM, Qısa filmlər festivalı, "DokuBaku" və s. Beynəlxalq festivallar Azərbaycan kinosunun dünyaya inteqrasiyası deməkdir. Biz belə layihələr vasitəsilə maraqlı nümunələrlə tanış olur və filmlərin yaradıcı heyətləri ilə əlaqə qurur, sənət mübadiləsi aparırıq".

Qeyd edək ki, festival çərçivəsində Nizami Kino Mərkəzində beynəlxalq münsiflər heyəti ilə görüşlər, rejissor Jonathan Laskarnın (İsveçrə) ustad dərsi təşkil olunacaq. Bundan əlavə, proqramda Nitya Ramloqan (ABŞ), Tilly Vallace (İngiltərə) və Nərgiz Ağamalıyeva (Azərbaycan) iştirakı ilə "Stop montion" və "Şüşə üzərində animasiya" vorkşopları da nəzərdə tutulub. "Animasiya refreyminqi: rəqəmsal texnologiyalar əsrində hərəkətli təsvirin qorunması və bərpası" adlı konfrans da festivalın əsas proqramına daxil edilən tədbirlərdəndir.

Festivalın media tərəfdaşları "Baku" və "Nargis" jurnallarıdır.

**Lalə Azəri**

# Misirlə mədəni əməkdaşlıq geniş sahələri əhatə edir

Mədəniyyət naziri Anar Kərimov sentyabrın 1-də Misir Ərəb Respublikasının ölkəmizdəki səfiri Hişam Mohamed Nağı Abdel Həmid ilə görüşüb.

Görüşdə iki ölkə arasında mədəniyyət sahəsində əlaqələrin hazırkı vəziyyəti və planlaşdırılan layihələr haqqında fikir mübadiləsi aparılıb.

Səfiri salamlayan Anar Kərimov Misir Ərəb Respublikası ilə ikitərəfli münasibətlərin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. Ötən ilin dekabr ayında Misirə səfərini xatırladan nazir səfər çərçivəsində keçirilən görüşlərdə əməkdaşlığın inkişafına töhfə verə biləcək addımların atıldığını qeyd edib.

Anar Kərimov eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədi daşıyan "Bakı Prosesi" haqqında məlumat verib. Bildirib ki, "Bakı



Prosesi" artıq nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən BMT tərəfindən qlobal platforma kimi qəbul olunur.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən ötən il irəli sürülən "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal təşəbbüsü barədə də səfirə məlumat verən nazir bu çağırış vasitəsilə ölkəmizin bölgədə və dünyada sülhü qorumaq üçün səylər göstərdiyini diqqətə çatdırıb. Qeyd edib ki, çağırışın əsas məqsədi postmünaqişə dövründə olan ölkələrin işğaldan azad olunmuş ərazilərində mədəni infrastrukturu dirçəltmək, milli-mənəvi dəyərləri yenidən həmin torpaqlara qaytarmaq üçün davamlı sülhün təmin edilməsinə töhfə vermək̈dir. Eyni zamanda bu qlobal kampaniya Azərbaycanın işğaldan azad olunmuş ərazilərində mövcud vəziyyətin, dağıdılmış infrastrukturun və mədəniyyətə qarşı törədilmiş vandalizmin dünyaya çatdırılması məqsədi daşıyır.

Səfir Hişam Mohamed Nağı Abdel Həmid səmimi qəbula görə nazirə təşəkkürünü bildirib. Diplomat səfirliyin nazirlik tərəfindən həyata keçirilən layihə və təşəbbüslərdə iştirakından məmnunluğunu bildirib.

Daha sonra görüş qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi ilə davam edib.

# "Yaradıcılıq düşərgəsini işğaldan azad edilən bütün bölgələrdə gerçəkləşdirmək istəyirik"

## "Youth ArtCamp Shusha and Baku" layihəsinə yekun vuruldu

əvvəli səh. 1-də

UNESCO-nun mədəni diplomatiya üzrə xoşməramlı səfiri Hedva Ser Şuşanın müharibədən əvvəlki və sonrakı vəziyyətini şəkillərdə görərkən çox təsirləndiyini dedi, rəssamların ərsəyə gətirdiyi işlərin əhəmiyyətli olduğunu vurğuladı. Qeyd olundu ki, 2012-ci ildən başlanan layihə incəsənət nümayəndələrini təkcə bir araya gətirmək üçün deyil, həmçinin dünya xalqları arasında mədəni körpünün qurulmasına xidmət edir.

Layihəni dəstəkləyən bütün qurumlara təşəkkürünü bildirən Hedva Ser gənc rəssamların maraqlı yanaşmalar ortaya qoyduqlarını dedi, onlara uğurlar arzuladı.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad



Xəlilov belə bir layihənin təşkilinə görə minnətdarlığını bildirdi. Müxtəlif ölkələrdən gəlmiş gənc rəssamlara azad düşüncənin və sərbəst yanaşmalarının təqdirlə qarşılandığını dedi: "Gənc rəssamların görüşü, xüsusən də müxtəlif ölkələrdə baş tutan bu qəbildən layihələr böyük təcrübə və inkişafa zəmin yaradır. İnanıram ki, işğaldan azad olunan ərazilərimizdə olan gənc rəssamlar bu duyğunu gələcək əsərlərində də tablolarda əks etdirəcəklər".

Əməkdar rəssam Əsmər Nərimanbəyova sərginin layihədə iştirak edən rəssamlar üçün çox əhəmiyyətli olduğunu deyərək bu rəsmləri Ağdam, Füzuli, Cəbrayıl və Şuşanın bir gözgüsü olduğunu qeyd etdi. Bildirdi ki, rəssamlar Qarabağı olduğu kimi əks etdiriblər.

Sonra nazir Anar Kərimov və Hedva Ser layihədə iştirak edən rəssamlara sertifikatlar təqdim etdilər.

Layihə çərçivəsində gənc rəssamların çəkdiyi rəsm əsərlərindən ibarət kataloqun hazırlanması, həmçinin xarici ölkələrdə yayımlanması, həmçinin rəsm əsərlərindən ibarət sərginin təşkili nəzərdə tutulur.

Sonda Nicat Aslanovun triosunun müşayiəti ilə xalq mahnılarımız və milli rəqslərimizdən ibarət caz konserti təqdim olundu.

**Lalə**

# Ağstafada vətəndaşların müraciətləri dinlənilib



Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu keçirilir, sakinlərin müxtəlif məsələlərlə bağlı müraciətlərinin həlli ilə əlaqədar müvafiq addımlar atılır.

2022-ci ilin avqust ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov avqustun 31-də Ağstafa rayon Heydər Əliyev Mərkəzində Qazax, Ağstafa və Tovuz sakinləri, eləcə də digər rayonlardan qəbula gələn vətəndaşlarla görüşüb.

Qəbuldan öncə mədəniyyət naziri Anar Kərimov və Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Sonra Ağstafa rayon Heydər Əliyev Mərkəzinə gələn Anar Kərimov 2008-ci ildən fəaliyyət göstərən mərkəzin işi ilə tanış olub, burada ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolara və eksponatlara baxış keçirib.

Daha sonra Ağstafa rayon Heydər Əliyev Mərkəzində nazirliyin məsul əməkdaşlarının da iştirakı ilə vətəndaşların qəbulu keçirilib. Qəbulda iştirak edən sakinlərin müraciətləri əsasən işlə təmin olunma, fəxri adın verilməsi, mədəniyyət ocağının başqa binaya köçürülməsi, rayon mədəniyyət müəssisələrinin kadr məsələləri, uşaq musiqi və incəsənət məktəbləri üçün tədris vəsaitindən istifadəyə icazə verilməsi, tarix-mədəniyyət abidələrinin qorunması, kitabxana sisteminin inkişafı, bundan əlavə, aparıcı mədəniyyət ocaqlarının adının təmiri, adın əbədiləşdirilməsi və digər məsələləri əhatə edib.

Anar Kərimov vətəndaşların müraciət və təkliflərini dinləyib, ərizə və şikayətlərinə baxıb. Qaldırılan məsələlərin operativ, hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

***

Vətəndaşların qəbulundan sonra Anar Kərimov Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucovun iştirakı ilə bir sıra mədəniyyət müəssisələrinə baxış keçirib.

Ağstafa Dövlət Rəsm Qalereyası ilə tanışlıq zamanı bildirilib ki, 2008-ci ildən fəaliyyət göstərən qalereyanın ümumi fonduna rəngkarlıq və qrafika üslubunda işlənmiş 184 əsər daxildir.

Sonra 1990-cı ildən fəaliyyət göstərən və 330 mindən çox kitab fondu olan Ağstafa rayon MKS-nin Mərkəzi Kitabxanası və Tarix-Diyarşünaslıq Muzeyinə baxış keçirilib. Məlumat verilib ki, 1993-cü ildən fəaliyyət göstərən muzeydə 1442 eksponat mühafizə edilir.

Ağstafa rayon Mədəniyyət Mərkəzinə gələn nazir müəssisənin fəaliyyəti haqqında məlumat alıb. Qeyd edilib ki, 1990-cı ildən Mədəniyyət evi, 2015-ci ildən Mədəniyyət Mərkəzi kimi fəaliyyət göstərən mərkəzin binası 2016-cı ildə əsaslı təmir olunub.

Anar Kərimov Ağstafa şəhər Hüseyn Arif adına Uşaq musiqi məktəbinin fəaliyyəti ilə də tanış olub. Bildirilib ki, 1975-ci ildə yaradılan məktəb fəaliyyətini Prezident İlham Əliyevin 2014-cü il 30 iyun tarixli sərəncamı ilə müasir üslubda inşa edilən binada davam etdirir. Hazırda məktəbdə 40 sinif otağı mövcuddur, fortepiano, tar, kamança, saz, nağara, skripka, qarmon və xanəndəlik ixtisasları üzrə 235 şagird təhsil alır, 82 müəllim dərs deyir.



### "Gənclərin tariximizə marağı məmnunluq doğurur"

Mədəniyyət naziri Anar Kərimov, Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov, Ağstafa RMİ-nin rəisi Nurəddin Mehdiyev, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Mədəni irsin qorunması şöbəsinin müdiri Ruslan Ənvərli avqustun 31-də "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğuna baş çəkiblər.

Əvvəlcə Ağstafa rayonu Soyuqbulaq qəsəbəsindən Keşikçidağ mağaralar kompleksinə gedən yolun başlanğıcında yeni qoyulmuş məlumat lövhəsinə baxış keçirilib, kurqanlar vadisinin ərazisində yerləşən "Ceyrançuxur dərəsi" 1 saylı kurqanda "Keşikçidağda elmi arxeoloji qazıntılar və Yay məktəbi – 2" adlı layihə çərçivəsində aparılan qazıntı işləri ilə tanışlıq olub. Ərazidə arxeoloji qazıntılar və aşkar olunmuş maddi mədəniyyət nümunələri barədə ətraflı məlumat verilib.

Arxeoloji qazıntılarda iştirak edən gənc könüllülərin tariximizə maraq göstərməsinin məmnunluq doğurduğunu vurğulayan nazir Anar Kərimov onlara fəaliyyətində uğurlar arzulayıb.

Sonra qoruğa məxsus informasiya mərkəzi və mərkəzin ətrafında Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində şəhid olmuş igid oğullarımızın xatirəsinin əbədiləşdirilməsi məqsədilə salınmış "Badam bağı" ilə tanışlıq olub.

Sonra Gürcüstanla sərhəddə yerləşən Keşikçiqala, Alban məbədi və mağara-məbədə də baş çəkilib.

Daha sonra "Keşikçidağ"ın ən hündür yüksəkliklərindən olan, Ali Baş Komandanın şərəfinə ucaldılmış "İlham Əliyev adına zirvə"nin öndə Əməkdar mədəniyyət işçisi, aşıq Hüseyn Hüseynovun ifasında saz havaları səsləndirilib, zirvə haqqında məlumat verilib.

Qoruq əməkdaşı tərəfindən Keşikçidağ mağaralar kompleksi ərazisində aparılmış arxeoloji qazıntılar zamanı fraqmentləşmiş halda aşkar edilmiş saxsı nümunələrin bərpa prosesi, həmçinin qoruğa məxsus çap məhsullarından, fotoalbom və əl işlərindən ibarət sərgi nümayiş olunub, burada görülən işlər, həyata keçirilən layihələr barədə videoçarxlar təqdim edilib.

Anar Kərimov qoruğun fəaliyyəti ilə bağlı təklifləri dinləyib, tövsiyələrini verib.

# "Əcdadlarımın Vətəninə bir daha səfər etməkdən məmnunam"

Mədəniyyət naziri Anar Kərimov Almaniyada yaşayan İrəvan xanının nəslindən olan soydaşımız, tarixçi, etnoqraf, mühəndis Əmir Əli Sərdari İrəvani ilə görüşüb.

Görüş zamanı qədim Azərbaycan şəhəri İrəvanın tarixi-mədəni irsinin öyrənilməsi və təbliği ilə bağlı nəzərdə tutulan işlər, layihələrə dair fikir mübadiləsi aparılıb. Bu kontekstdə İrəvanda və ümumilikdə hazırkı Ermənistan ərazisində Azərbaycan xalqına məxsus zəngin tarixi-mədəni irsə qarşı uzun illər boyu həyata keçirilən vandalizm, talançılıq və mənimsəmə faktlarına diqqət çəkilib.



Əmir Əli Sərdari İrəvani sözügedən tarixi Azərbaycan ərazilərində mövcud olmuş mədəni irsimizin öyrənilməsi ilə bağlı layihə və təşəbbüslərdə məmnuniyyətlə iştirak etmək istədiyini və bu istiqamətdə dəstək göstərə biləcəyini qeyd edib.

Öz növbəsində nazir Anar Kərimov mədəni irs nümunələrinin arxivləşdirilməsi, qeydiyyata alınması və bu xüsusda qonşu ölkələrin arxiv sənədlərinin araşdırılmasının vacibliyini vurğulayıb.

Söhbət zamanı həmçinin İrəvan xanının nəsli haqqında birgə sənədli filmin hazırlanması məsələsinə də toxunulub və bu istiqamətdə əməkdaşlığın faydalı olacağı bildirilib.

Sonda Əmir Əli Sərdari İrəvani əcdadlarının Vətəninə bir daha səfər etməkdən məmnunluğunu dilə gətirib, səmimi qəbula görə təşəkkür edib.

# Mədəniyyət Nazirliyində görkəmli tarzənlə görüş

Sentyabrın 2-də görkəmli tarzən, Xalq artisti, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Fikrət Verdiyevin 75 illik yubileyi tamam olub.



Bu münasibətlə mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev sənətkarla görüşüb. Yubileyi münasibətilə tarzəni təbrik edən Elnur Əliyev onun yaradıcılığının daima diqqət mərkəzində olduğunu vurğulayıb, möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıb.

Xalq artisti Fikrət Verdiyev də öz növbəsində ona göstərilən diqqətə görə minnətdarlığını ifadə edib.

Qeyd edək ki, Fikrət Verdiyevin 75 illik yubileyi münasibətilə sentyabrın 24-də Heydər Əliyev Sarayında tanınmış sənətçilərin iştirakı ilə konsert keçiriləcək.

# Peşəkarlıq və təşəbbüskarlıq mədəniyyət işçiləri üçün əsas meyar olmalıdır

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi sistemində fəaliyyətin və idarəçiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanan bölgələrə səfər planına uyğun olaraq, mədəniyyət naziri Anar Kərimov Qazax rayonuna səfər edib.



Səfər çərçivəsində Anar Kərimov Qazax rayonunun Daşsalahlı kəndində "Avey" Dövlət-Tarix Mədəniyyət Qoruğunun "Damcılı" filialına baş çəkib. Nazirə məlumat verilib ki, burada dünya əhəmiyyətli qədim Damcılı mağara düşərgəsi və çox sayda mağaralar yerləşir. Ərazidə ilk dəfə 1953–1957-ci illərdə arxeoloji qazıntılar aparılıb və Avey dağında Daş dövrünə aid 30-a yaxın mağara aşkar edilib, buradan iki minə yaxın alət tapılıb. 2015-ci ilin yayında Yaponiyanın Tokio Universitetinin muzeyi, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu və "Avey" qoruğu arasında memorandum imzalanıb. Sənədə əsasən, yaponiyalı və azərbaycanlı mütəxəssislər bu ərazilərdə arxeoloji tədqiqat işləri aparırlar və hazırda araşdırmalar davam etdirilir.

Sonra 1970-ci ildə tikilən və vaxtilə "Yay kinoteatrı" kimi fəaliyyət göstərən Gənclərin Asudə Vaxt Mərkəzinin binasına da baxış keçirilib.

Anar Kərimov Qazax rayon Mədəniyyət Mərkəzi və Qazax Dövlət Dram Teatrında da olub. Qazax şəhər 2 nömrəli Uşaq musiqi məktəbi ilə tanışlıq zamanı nazirə məlumat verilib ki, 1991-ci ildən fəaliyyət göstərən musiqi məktəbində 63 müəllim çalışır, 241 şagird təhsil alır.

Daha sonra Qazax rayon MKS-nin Mərkəzi Kitabxanasına gələn Anar Kərimova 500 minə yaxın kitab fondu olan kitabxana haqqında ətraflı məlumat verilib.

***

Səfər çərçivəsində nazir Anar Kərimov Qazax rayon Mədəniyyət Mərkəzində mədəniyyət işçiləri ilə görüşüb. Görüşdə Ağstafa, Qazax və Tovuz rayonlarında fəaliyyət göstərən mədəniyyət işçiləri iştirak ediblər.

Nazir tədbirdə çıxış edərək bölgələrdə mədəniyyət işçiləri arasında peşəkarlıq səviyyəsinin və təşəbbüskarlığın artırılmasının vacibliyini diqqətə çatdırıb. Nazirlik sistemində idarəçiliyin təkmilləşdirilməsi kontekstində mədəniyyət müəssisələrinin fəaliyyətinin günün tələbləri səviyyəsində qurulmasının prioritet məsələ olduğu vurğulanıb.

Tədbirdə mədəniyyət müəssisələrində mövcud olan problemlərdən söz açılıb, onların həlli yolları ilə bağlı təkliflər dinlənilib.

Nazir çıxışının sonunda problemləri aradan qaldırılması, müəssisələrin daha səmərəli fəaliyyətinin təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib.

Sonra konsert proqramı təqdim olunub. Konsertdə Qazax, Ağstafa və Tovuz uşaq musiqi məktəbləri və Tovuz rayon Mədəniyyət evinin kollektivləri rəngarəng musiqi nömrələri və rəqslər təqdim ediblər.

# Azad Kəlbəcərdə ilk konsert

## "Qalib əsgər və zabitlərimiz qarşısında çıxış etmək qürurverici hissdir"

İşğaldan azad edilməsini otuz ilə yaxın müddətdə səbirsizliklə gözlədiyimiz doğma Qarabağda həyat canlanır. Hər bir azərbaycanlı üçün əziz olan bu torpaqlara bərpa və yenidənqurma işləri ilə yanaşı, mədəni həyat da qayıdır, müxtəlif tədbirlər, konsertlər keçirilir. Belə tədbirlərdən biri də Vətənin keşiyində küləkdən ayıq dayanan hərbçilərimiz üçün Kəlbəcər rayonunda yerləşən N saylı hərbi hissədə bu günlərdə təşkil olunan konsert proqramı oldu.





"Yaşa, doğma Azərbaycan!" adlı konsert Kəlbəcərdə 29 il sonra təşkil edilən ilk mədəni-kütləvi tədbir kimi tarixə yazılıb. Proqramda tanınmış azərbaycanlı müğənnilər Xalq artisti Emin, eləcə də Ellai, Bahh Tee & Türkan, Jony (Cahid Hüseynli), Rauf & Faiq, gənc müğənni Cəmilə Həşimova və "The Excellent Music Band" qrupu bir-birindən maraqlı ifaları ilə hərbçilərimizə xoş anlar bəxş ediblər.

Konsertin açılışında gənc müğənni Cəmilə Həşimova "The Excellent Music Band" qrupunun müşayiəti ilə "Reyhan", "Bu gün hər şey yaxşı olacaq" və "Sənsiz" mahnılarını ifa edib.

Sonra səhnəyə çıxan tanınmış müğənnilər Bahh Tee & Türkan, Ellai, Rauf & Faiq, Jony, Xalq artisti Emin repertuarlarından məşhur hitləri səsləndiriblər. Eminin "Yaşa, doğma Azərbaycan!" mahnısı xüsusi maraqla qarşılanıb. Konsert gənc müğənni C.Həşimovanın ifasında "Sadəcə, ən yaxşısı" və "Bu şəhərdə" mahnılarla yekunlaşıb.

Jurnalistlərə müsahibə verən Xalq artisti Emin deyib: "Bizə işğaldan azad olunmuş ərazilərdə konsert vermək sevincini yaşatdığı üçün Azərbaycan Ordusuna təşəkkür edirəm. Burada – Kəlbəcərdə qalib əsgər və zabitlərimizin qarşısında çıxış etmək olduqca qürurverici hissdir. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu igidlik göstərdi və ərazilərimizi işğaldan azad etdi".

Emin Kəlbəcərdən sonra işğaldan azad olunmuş digər ərazilərimizdə də konsert proqramı ilə çıxış edəcəklərini bildirib.

Doğma diyara gəldiyinə görə özünü hədsiz dərəcədə xoşbəxt hiss etdiyini vurğulayan Jony deyib: "Torpaqlarımızın işğaldan azad edilməsi qürur hissi doğurur. Kəlbəcərə gəldiyimə görə gözlərimdən sevinc yaşları axır. Kəlbəcərin ab-havası, yol boyunca dağlar qeyri-adi təsir bağışlayır. Doğma diyara gəldiyimə və Azərbaycan əsgərləri qarşısında çıxış etməyimə görə hədsiz dərəcədə xoşbəxtəm".

# Nizami irsinin qorunması və təbliği

Gəncə RMİ-nin təşəbbüsü, Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi və Nizami Gəncəvi Muzeyinin təşkilatçılığı ilə "Nizami irsinin qorunması, nəsillərə ötürülməsi, təbliği" adlı tədbir keçirilib. Əvvəlcə dahi şairin məqbərəsi ziyarət olunub, məzarının üzərinə gül dəstələri düzülüb.



Sonra qonaqlar Nizami Gəncəvi Muzeyinin foyesində kitab sərgisi və Nizaminin "Xəmsə"sinə həsr olunan rəsm sərgisi ilə tanış olublar.

Gəncə RMİ-nin rəisi Vasif Cənnətov çıxışında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 881-ci ildönümünə həsr olunan silsilə tədbirlərin regional idarənin bütün mədəniyyət müəssisələrində keçiriləcəyini diqqətə çatdırıb.

Digər çıxış edənlər Nizaminin həyatı və yaradıcılığı, bu əbədiyaşar irsin tədqiqi və təbliği barədə danışıblar.

Sonda dahi şairin qəzəlləri əsasında hazırlanan musiqi proqramı təqdim edilib.

# "Naxış-naxış incilər"

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyi, Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) Masallı nümayəndəliyinin birgə təşkilatçılığı ilə xalq tətbiqi sənətinin inkişafı və gənclərin asudə vaxtlarının səmərəli təşkili ilə bağlı səyyar tədbir keçirilib.



"Naxış-naxış incilər" adlı tədbirdə muzeyin direktoru Əntiqə Tağıyeva iştirakçılara misgərlik və xalçaçılıq sənətinin tarixi barədə məlumat verib.

Əvvəlcə tədbir iştirakçıları Masallı şəhər sakini, xalçaçı Tünzalə Abuzərovanın həm də emalatxana kimi istifadə etdiyi evində olublar. Sənətkar xalqımızın qədim sənət nümunələrindən olan xalçaçılığın incəlikləri barədə gənclərə məlumat verib. Gənclər xalça toxunması prosesi ilə tanış olduqdan sonra dəzgah arxasında özlərini sınayıblar.

Daha sonra səyyar tədbir Boradigah qəsəbəsində misgər Taleh Ağayevin ev-emalatxanasında davam edib. Burada gənclər misgər sənətkarın mis qabları necə qalay etdiyini və mis qab üzərində döymə üsulu ilə vurduğu zərif naxışların işlənməsi prosesini əyani izləyiblər.

Hər iki sənətkar gənclərə bölgənin qədim sənətkarlıq növləri ilə tanış olmağı və bu peşəyə yiyələnməyi tövsiyə ediblər.

# "Tanıyaq və tanıdaq!" – istedad müsabiqəsi

Ağdaş RMİ Ağdaş rayon Mədəniyyət Mərkəzində istedadlı şəxslərin aşkara çıxarılması və tanıdılması məqsədilə "Tanıyaq və tanıdaq" adlı müsabiqə keçirilib.




Layihəyə Ağdaş rayon Mədəniyyət Mərkəzinin tabeliyində olan kənd mədəniyyət, diyarşünaslıq, sənətkarlıq, folklor evi və klub müəssisələrinin təşkilatçılığı ilə kənd əhalisi arasında istedadı ilə seçilən şəxslər cəlb edilib. İştirakçılar rəqs, rəsm, qiraət, gimnastika, səs və musiqi alətlərində ifa bacarığı, aktyorluq və dekorativ-tətbiqi sənət üzrə müsabiqəyə qatılıblar. Müsabiqədə fiziki imkanları məhdud şəxslər də iştirak ediblər.

Öncə Mədəniyyət Mərkəzinin qarşısında bacarıqlı uşaqların əl işlərindən ibarət təşkil olunmuş sərgiyə baxış keçirilib. Daha sonra şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Müsabiqə iştirakçılarının çıxışlarını münsiflər heyəti 10 ballıq sistemlə dəyərləndiriblər. Ən çox xal toplayan iştirakçılar 1-ci, 2-ci və 3-cü yerlərə layiq görülərək fəxri fərman və hədiyyələrlə mükafatlandırılıb. Müsabiqədə iştirak edən digər şəxslərə də fəxri fərmanlar təqdim olunub.

# Torpağı Vətən edənlər unudulmur



Bərdə RMİ Yevlax şəhər Yaradıcılıq evində Vətən müharibəsi şəhidi Faiq Adıgözəlova həsr olunmuş teatrlaşdırılmış ədəbi-bədii, musiqili kompozisiya nümayiş etdirilib. İdarə rəisi Vəsilə Möhsümovanın da iştirak etdiyi tədbirdə şəhidin qısa ömür yolu, məktəb illəri, Azərbaycan Ordusunda xidmət dövrü və 44 günlük Vətən müharibəsində iştirakını əks etdirən səhnələr nümayiş olunub, vətənpərvərlik ruhunda şeirlər və musiqi nömrələri səsləndirilib.

***

Şəki RMİ-nin rəisi Azər Yusubov, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Şəki rayon komitəsinin sədri Rəhman Məmmədov və mədəniyyət işçiləri tərəfindən Vətən müharibəsi şəhidi Vasif Həmidovun məzarı və ailəsi ziyarət edilib.

***

Xaçmaz RMİ-nin əhatə etdiyi Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə Milli Qəhrəman Yunis Nəcəfovun (1967-1992) 55 illiyi ilə əlaqədar tədbir keçirilib.

***

Xızı rayonunun Sitalçay kəndində torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə bulaq kompleksi istifadəyə verilib. Bulaq kompleksində Vətən müharibəsi şəhidləri Elnur Ağaəhmədov, Rafiq Məcidov və Birinci Qarabağ döyüşlərində şəhid olan Mirzə İbrahimov, Nicat Allahverdiyev və Ələbbas Ələkbərovun xatirələri əbədiləşdirilib.

***

Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidi Mahir Dadaşzadənin doğum günü münasibətilə "Şəhidlik zirvəsinin 29 yaşlı fatehi" adlı tədbir keçirilib. Beyləqan Rayon İcra



Hakimiyyəti və Kürdəmir RMİ Beyləqan rayon nümayəndəliyinin tabeliyində fəaliyyət göstərən müəssisələrin birgə təşkilatçılığı ilə gerçəkləşən tədbirdə şəhidin həyatından və döyüş yolundan bəhs edən film nümayiş olunub.

Kürdəmirin Qarasu kəndində Vətən müharibəsi şəhidi Elnur Abışovun adına tikilən xatirə bulağının açılışı olub. Elnur Abışov Vətən müharibəsində Suqovuşan qəsəbəsi istiqamətində şəhid olub, doğulduğu kənddə torpağa tapşırılıb. Ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

***



İmişli rayonunda şəhidlərin xatirələrinin əbədiləşdirilməsi istiqamətində daha bir addım atılıb. Gənc fəal Ziya Rzayevin təşəbbüsü ilə İmişli şəhərinin Xiyabani küçəsində şəhidlərin xatirəsinə inşa edilən bulaq kompleksinin açılışı olub. Açılış tədbirində çıxış edənlər qəhrəman övladların yetişməsində valideynlərin əvəzsiz rolundan danışaraq şəhid və qazi analarına, habelə Vətən müharibəsi iştirakçılarının valideynlərinə təşəkkürlərini bildiriblər.

# "Keşikçidağ"da yeni tapıntılar

Ağstafa rayonundakı "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində arxeoloji tədqiqat işləri davam etdirilir. Araşdırma işləri AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, dosent Səfər Aşurovun rəhbərlik etdiyi ekspedisiya tərəfindən həyata keçirilir.

İnstitutun baş direktoru, professor Abbas Seyidov və əməkdaşlardan professor Hidayət Cəfərov və tarix üzrə fəlsəfə doktoru Yaqub Məmmədov arxeoloji tədqiqatlarla tanş olublar. Məlumat verilib ki, tədqiqatlar nəticəsində kurqan çölündə diametri 21 metr olan, ətrafı kromlexlə əhatələnmiş e.ə. I minilliyin ilk yarısına aid qəbir abidəsi tapılıb. İki kameradan ibarət kurqandan in-



san skeletləri və maddi mədəniyyət nümunələri aşkar olunub.

Qoruğun direktoru Musa Mursaquliyev aparılan arxeoloji qazıntı işlərindən razılığını bildirib, tədqiqatçılara uğurlar arzulayıb.

# Yubiley, müşavirə, sərgi, səyyar kitabxana...

Gəncə Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinin müxtəlif ali təhsil müəssisələrinə qəbul olaraq tələbə adını qazanan məzunları ilə görüş keçirilib. Görüş zamanı idarə rəisi Vasif Cənnətov məzunları təbrik edib, onlara uğurlar arzulayıb.

Gəncə RMİ və Samux Rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə rayonun Qarayeri qəsəbə Uşaq musiqi məktəbində və onun ətrafındakı parkda iməcilik keçirilib. Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev, Gəncə RMİ-nin rəisi Vasif Cənnətovun da iştirak etdiyi iməcilikdən sonra musiqi məktəbinin kollektivi tərəfindən musiqi nömrələri təqdim edilib.

Samux rayon MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsi "Şuşanın dahi şəxsiyyətləri" adlı kitab sərgisi təşkil ediblər.

***



Şəki RMİ-nin rəisi Azər Yusubov Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbində aparılan əsaslı təmir işləri ilə tanış olub. Musiqi məktəbinin direktoru Tərlan Məmmədov və iş icraçısı Adil Bədəlov binada aparılan əsaslı təmir işləri barədə və müəssisə haqqında idarə rəisinə məlumat veriblər.

***

Sumqayıt RMİ Sumqayıtın Tarixi Muzeyində idarə rəisi Rəşad Əliyevin iştirakı ilə tabeli müəssisə rəhbərlərinin iştirakı ilə müşavirə



keçirilib. Müşavirədə mədəniyyət müəssisələrinin fəaliyyətinin müasir dövrün tələbləri əsasında qurulması, işə davamiyyət, şəffaflıq və səmərəliliyin artırılması, təcrübə mübadiləsinin aparılmasına diqqət yönəltməyin vacibliyi vurğulanıb. İdarə rəisi həmçinin bütün müəssisələrdə mətbuatla işin təkmilləşdirilməsi, sosial şəbəkələrin imkanlarından düzgün istifadə etməklə maarifləndirmə və təbliğat fəaliyyətinin sistemli və əlaqəli şəkildə həyata keçirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Sumqayıt şəhər Nəriman Nərimanov adına Mədəniyyət Mərkəzinin "Dostluq" Mədəniyyət evində fəaliyyət göstərən "Aypara" kukla teatrı "Cırtdan" tamaşasını təqdim edib. Poeziya evində balacaların görüşünə gələn teatr uşaqlara xoş ovqat bəxş edib.

***

Ağstafa RMİ Tovuz rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə Heydər Əliyev adına şəhər istirahət parkında səyyar kitabxana xidməti təşkil edilib. Tariximizə, milli-mənəvi dəyərlərimizə, ədəbiyyat və mədəniyyətimizə dair kitablar nümayiş olunub.

***

"İdeoloji maarifləndirmə konsepsiyası" ilə bağlı Yeni Azərbaycan Partiyası Bərdə rayon təşkilatının təbliğat qrupu Heydər Əliyev adına park-bulvarda "Gender bərabərliyi" mövzusunda tədbir keçirib. Tədbirdə çıxış edən Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova mövzu ilə bağlı qanunvericilik bazası haqqında söz açıb.

***

Ağdaş RMİ Zərdab rayon MKS-nin Dəkkəoba kənd kitabxana filialına Dəkkəoba kənd körpələr evi-uşaq bağçası fidanlarının ekskursiyası təşkil olunub.

***




Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanasında XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xurşidbanu Natəvanın (1832-1897) 190 illiyi ilə əlaqədar "Poeziyamızın iftixarı" adlı tədbir keçirilib. Tədbirdə "Xurşidbanu Natəvan – 190" adlı sərgi nümayiş olunub.

***

Biləsuvar RMİ-nin əhatə etdiyi Neftçala Dövlət Rəsm Qalereyası isə Xan qızının 190 illik yubileyinə həsr olunmuş sərgi təşkil edib.

**Hazırladı: N.Məmmədli**

# "Şuşada təbiətin ecazkarlığı ilə qonaqpərvərlik vəhdət təşkil edirdi..."

Beynəlxalq Muğam Mərkəzində sentyabrın 4-də "Youth ArtCamp Shusha and Baku" ("Şuşa və Bakı gənclərin incəsənət düşərgəsi") beynəlxalq layihəsinin bağlanış mərasimində layihə çərçivəsində Ağdam, Füzuli, Cəbrayıl və Şuşa şəhərlərini ziyarət edən ölkəmizdən və xaricdən 16 gənc rəssamın çəkdikləri rəsmlərin sərgisi nümayiş olundu. Düşüncə və yanaşma fərqlilikləri ilə seçilən əsərlər qonaqlar tərəfindən maraqla qarşılandı.

Sərgi ilə tanışlıq zamanı Xalq rəssamı, Azərbaycan Rəssamlar İttifaqının sədri **Fərhad Xəlilov** əsərləri tariximizə əcnəbi gənclərin gözü ilə baxış olaraq yüksək qiymətləndirdi: "Bu əsərlərin hər birində biz bu gün sənətkarlıq tərəflərini deyil, məsələyə yanaşmanı qiymətləndirməliyik. Hər bir rəssam gördüyünü azad və sərbəst, öz üslub və janrında kətana köçürüb".

Türkiyəli rəssam **Alper Bakıcı** Türkiyə-Azərbaycan qardaşlığının əbədiliyindən söz açdı: "Tablo üzərində Azərbaycanla Türkiyənin ortaq mirası olan Dədə Qorqudun fəlsəfi ruhunu ötürməyə çalışdım. Şuşa qalası üzərində Dədə Qorqudun rəsmini çəkdim, Azərbaycan tarını Türk dünyasının qopuzu ilə əlaqələndirdim. Dədə Qorqud həm də sazımızın simvolu olduğu üçün onun ruhunu Şuşa qalasının mərkəzi qapısında birləşdirməyə çalışdım. İşlədiyim rəsmdə göy, qırmızı və yaşıl rəngləri əsas götürmüşəm. Bununla mən Azərbaycan-Türkiyə qardaşlığına bir töhfə vermək niyyətimi reallaşdırdım".



Əməkdar rəssam **Əsmər Nərimanbəyova** layihənin Azərbaycanda təşkilinə görə əlaqədar qurumlara minnətdarlığını bildirdi: "Şuşanın hər bir qarışı bizim üçün doğmadır. Təəssüf ki, biz bu binaları fotolarda görmüşük. Biz səfərdə olduğumuz zaman Şuşanın tanınmaz hala salındığına şahid olduq. Ancaq xəyalən köhnə Şuşanın küçələri ilə dolaşır, onun istisini duya bildik. Bu gün sərgilənən əsərlərimdə yağlı boya ilə Şuşanı futurizm elementləri ilə kubizm və daha çox impressionizm üslubunda təsvir etdim. Şuşanı gəzdikcə, Şuşa qalasını, görkəmli şəxsiyyətlərin dağıdılmış evlərini gördükcə, Cıdır düzündən dağları seyr etdikcə mövzular sel kimi axıb özü ilə yeni fikirlər gətirir. Çəkdiyim rəsmlərdə çalışmışam Şuşanın tarixi abidələrini və füsunkar təbiətini əks etdirim. Bundan başqa, ağacların kölgəsində gizlənən evləri, kol-kos basmış həyətləri də göstərim".

Pakistanlı **Cazib Ceykob** sərginin sonunda sertifikat təqdim olunan zaman ona ünvanlanan sürəkli alqışlardan fəxr duyduğunu, bu alqışı həm də Pakistan-Azərbaycan dostluğuna həsr edildiyini dedi. O həm də Şuşada çəkdiyi ilk rəsmi Pakistan-Azərbaycan dostluğuna ərməğan edib: "Şuşaya səfərim zamanı böyük bir mədəniyyət ocağını kəşf etdim. Ancaq Şuşanın mərkəzi meydanında güllələnmiş heykəlləri görəndə çox mütəəssir oldum. Dahilərin heykəlləri vandalizmə məruz qalmışdı. Bu məni çox kədərləndirdi. Qərara gəldim ki, rəsmdə Pakistanda çox məşhur olan bəstəkar və şair Jameel Siraj ilə Üzeyir Hacıbəylinin portretini yaradım. Mən onları Şuşa qalasının önündə təsvir etmişəm. Musiqi insanları bir araya gətirdiyi üçün düşünürəm ki, yaratdığım əsər Pakistanla dost Azərbaycan arasında mədəni körpü rolunu oynayacaq".

İspaniyalı rəssam **Alisia Lunyo**: "Şuşanın küçələri ilə gəzərkən qarşıma çıxan beşmərtəbəli bina diqqətimi çəkdi və mən onu kiçik rəsmdə əks etdirmək istədim. Həmin bina tamamilə dağıdılsa da, mən onu rəsmdə olduqca əlvan rənglərlə işləmişəm. Rəsmdə həmçinin həmin binanı bərpa edən, şəhəri abadlaşdıran, ümumilikdə Şuşanın əvvəlki görkəmini özünə qaytarmaq üçün gecə-gündüz çalışan fəhlələrin əksini də görmək olar. Bu, həmin işçilərə mənim tərəfimdən olan bir ehtiramdır. Rəsmdə əlvan rənglərdən istifadə etmişəm. Çəhrayı və sarı rəngləri qabardıb, göyün müxtəlif çaları ilə uyğunlaşdırmışam".

Qətərli rəssam **Abdulla əl-Mutava** Azərbaycandan xoş və zəngin təəssüratlarla ayrılacağını bildirdi: "Qətərin Mədəniyyət Nazirliyi bu mötəbər tədbirdə iştirak etmək üçün mənim namizədliyimi irəli sürüb. Azərbaycanın zəngin mədəni irsi və Şuşanın füsunkar təbiətini öz əsərlərimdə əks etdirməklə yanaşı, Qətərin də mədəniyyəti, tarixi və idman sahəsində uğurlarını tanıtmaq istəyirəm. Türkiyə, İran, Meksika, Pakistan və İordaniyadan da rəssamların iştirak etdiyi bu sənət forumunda ölkəmi təmsil etməkdən xoşbəxtəm. Bu müddət ərzində iştirakçılar üçün hər cür şərait yaradılmışdı. Biz rəssamlar tablolarında iki əsas mövzunu – ətraf mühit və sülh ideyalarını təbliğ etdik. Mən başqa ölkələrdə də analoji tədbirlərdə iştirak etmişəm, amma Şuşada tamamilə başqa ab-hava var. Bu, təbiətin ecazkar gözəlliyi ilə vəhdət təşkil edən qonaqpərvərlik idi".

**Lalə Azəri**

# "Mərakeş gənc azərbaycanlı rəssamların gözü ilə"

Azərbaycanla Mərakeş arasında diplomatik münasibətlərin 30 illiyi və "Yaşıl yürüş"ün 47-ci ildönümünü qeyd etmək məqsədilə Mərakeş Krallığının Bakıdakı səfirliyi tərəfindən "Nərgiz Art Studio" və "Holcim Azərbaycan" ilə əməkdaşlıq çərçivəsində 6-18 yaş arası gənc rəssamlar üçün rəsm müsabiqəsi keçirilir.

"Mərakeş gənc azərbaycanlı rəssamların gözü ilə" devizi altında təşkil olunan müsabiqənin məqsədi Mərakeş və Azərbaycan xalqları arasında yaxın əlaqələr yaratmaq və qarşılıqlı anlaşmanı gücləndirmək, eyni zamanda gənc nəsil arasında yaradıcılığa marağı artırmaq, uşaqları faydalı fəaliyyətlərə həvəsləndirmək, onların dünyagörüşünü genişləndirmək və gənc istedadları üzə çıxarmaqdır.

İştirakçılar yarışma əsnasında üç yaş kateqoriyasına bölünərək memarlıq, coğrafi mənzərə, məşhur insanlar, Mərakeş nağılları və ya ölkənin adət-ənənələri kimi bu ölkənin elementlərini ehtiva edən sənət əsərlərinin fotoşəkillərini təqdim etməlidirlər.




Qaliblər iki mərakeşli rəssam Mahi Binebine və Abderrahim Yamou, eləcə də iki azərbaycanlı rəssam Əsmər Nərimanbəyovanın və Nərgiz Quliyevanın iştirak etdiyi münsiflər heyəti tərəfindən seçiləcək.

Qeyd edək ki, rəsm müsabiqəsində iştirak etmək istəyənlər əsərlərini oktyabrın 15-dək resm. marakesh@gmail.com ünvanına göndərməlidirlər. Müsabiqənin təfərrüatı, o cümlədən qaydalar, mükafatlar, münsiflər heyəti barədə əlavə məlumat almaq üçün https://www.marakeshresm.art/ linkinə daxil olmaq lazımdır.

# Tanınmış rejissorun yubileyi münasibətilə kitab-albom işıq üzü görüb

Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) sədri, Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Azər Paşa Nemətovun 75 illik yubileyinə həsr olunan kitab-albom çap olunub.




"Elm və təhsil" nəşriyyatında Azərbaycan, rus və ingilis dillərində işıq üzü görən yeni nəşrin əvvəlində Azər Paşa Nemətovun atası, görkəmli teatr rejissoru Zəfər Nemətovun (1917-1971) həyat və sənət yolundan bəhs olunur. Kitab-albom daha sonra "Uşaqlıq və gənclik illəri", "Portretlər", "Tamaşalardan fraqmentlər", "Sənət, həyat, düşüncələr..." bölmələri ilə davam edir.

Nəşrdə A.P.Nemətovun Azərbaycan Dövlət Gənc Tamaşaçılar, Leninqrad Gənc Tamaşaçılar, Arxangelsk Dövlət Dram, Tallin Gənc Tamaşaçılar, Azərbaycan Dövlət Akademik Milli Dram teatrlarında hazırladığı tamaşalardan, eyni zamanda görkəmli rejissorun yaradıcı səfərləri zamanı lentə alınan fotolar öz əksini tapıb.

Kitab-albomda ATXİ, Azərbaycan Dövlət Teatr Muzeyi, Akademik Milli Dram Teatrının muzeyi, o cümlədən rejissorun şəxsi arxivindən istifadə olunub.

Yeni nəşrin tərtibçisi Cavid Zeynallı, rus və ingilis dillərinə tərcümə edəni Ayna Zərbəliyeva, redaktoru Aida Qafarova, bədii tərtibatçısı isə Aqil Əmrahovdur.

# Dərbənd teatrının "Validə"sinə ictimai baxış olub

Dərbənd Dövlət Azərbaycan Dram Teatrında premyerası sentyabrda gözlənilən SSRİ Xalq artisti Murad Kajlayevin "Validə" əsəri əsasında hazırlanmış eyniadlı tamaşaya ictimai baxış olub.



Tamaşanın quruluşçu rejissoru Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş rejissoru, Əməkdar incəsənət xadimi Hafiz Quliyevdir. Səhnə əsərinin rəssamı Dağıstanın Əməkdar rəssamı Dəmir İsakov, musiqi rəhbəri isə Sevda Bəybalayevadır.

Tamaşada Dərbənd teatrının aparıcı aktyorları və "Kaspi" dövlət rəqs ansamblı iştirak edirlər.

Rejissor Hafiz Quliyev həmin teatrın kollektivi ilə birlikdə səhnə əsəri üzərində gərgin işlədiyini bildirib: "Məzuniyyət vaxtı olsa da, başda teatrın direktoru Dağıstanın Əməkdar mədəniyyət işçisi Firdovsi Əsgərov olmaqla bütün truppa ilə avqustun 1-dən 30-dək gərgin məşq etdik. Hər kəs qarşıya qoyulan tapşırığın öhdəsindən layiqincə gəlməyə çalışırdı. Sonda tamaşa uğurla təhvil verildi. Əsərin maraqlı süjet xətti var".

Qeyd edək ki, tamaşanın premyerası müəllifin iştirakı ilə Mahaçqala şəhərində nəzərdə tutulur.





*əvvəli səh. 1-də*

Əməkdar incəsənət xadimi Hafiz Quliyevin quruluş verdiyi səhnə əsərində Məcnun rolunu Xalq artisti Mənsum İbrahimov, Leyli obrazını isə gənc solist, Əməkdar artist Arzu Əliyeva ifa edəcək. Digər rolları Əməkdar artistlər Cahangir Qurbanov, Təyyar Bayramov və başqaları canlandıracaq. Tamaşanı dirijor Sevil Hacıyeva idarə edəcək.

Sənət ocağında sentyabrın 22-də isə Qara Qarayevin "Yeddi gözəl" baleti oynanılacaq. Dahi şair, mütəfəkkir Nizami Gəncəvinin eyniadlı poemasının motivləri əsasında yazılmış bu səhnə əsəri Azərbaycan balet sənətinin incilərindən sayılır və hər nümayişində geniş tamaşaçı auditoriyası toplayır. Xatırladaq ki, 2008-ci ildə "Yeddi gözəl" baleti dahi bəstəkarın 90 illiyi münasibətilə tamamilə yeni quruluşda səhnələşdirilib. Tamaşanın quruluşunu beynəlmiləl yaradıcı heyət həyata keçirib. Libretto müəllifi Yana Temiz, quruluşçu baletmeysteri Vasili Medvedev, quruluşçu rəssamı Dmitri Çerbadjidir.

Tamaşada əsas partiyaları Əməkdar artist Nigar İbrahimova, həmçinin Anar Mikayılov, Timur Oduşev, Edvard Arazov, Samirə Səmədova, Elmira Süleymanova, Failya Bolqarova, Leyla Nərimanidze, Cəmilə Kərimova, Ayan Eyvazova və digərləri ifa edirlər. Tamaşaya Xalq artisti, professor Cavanşir Cəfərov dirijorluq edir.

***

Akademik Milli Dram Teatrı da yeni mövsümün ilk ayının repertuarını təqdim edib. Kollektiv sentyabrın 23-24 və 25-də ötən mövsümün sonuncu premyerası – 44 günlük Vətən müharibəsinə həsr olunmuş "Zəfər yolu" tamaşası ilə teatrsevərlərin qarşısına çıxacaq.

Mədəniyyət Nazirliyinin sifarişi ilə hazırlanan səhnə əsərinin müəllifi və quruluşçu rejissoru Xalq artisti Azər Paşa Nemətov, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, bəstəkarı Xalq artisti Siyavuş Kərimi, rejissoru Emil Əskərovdur.

Tamaşada Xalq artistləri Nurəddin Mehdixanlı, Əli Nur, Əməkdar artistlər Hicran Nəsirova, Elxan Quliyev, Mətanət Atakişiyeva, Mirzə Ağabəyli, Elnar Qarayev, Anar Heybətov, Ayşad Məmmədov, Mətləb Abdullayev, Elşən Rüstəmov, Rəşad Bəxtiyarov, aktyorlar Elçin Əfəndi, Xədicə Novruzlu, Rada Nəsibova, İlahə Həsənova, İlyas Əhmədov, Afət Məmmədova, Aylin Həşimova, Elsevər Rəhimov, Corc Qafarov, Tural İbrahimov, Ramin Şıxəliyev, Elnur Qədirov, Cümşüd Zeynalov, Cavidan Novruz və Vüsal Mustafayev çıxış edəcəklər.

***

113-cü mövsümünü açacaq Azərbaycan Dövlət Akademik Musiqili Teatrı da vətənpərvərlik mövzulu nümunə təqdim edəcək. Yaradıcı heyət sentyabrın 27-də qürur mənbəyimiz olan şəhidlərə, qazilərə, əsgər övladlarımıza və Zəfərimizin əsas simasına çevrilən analarımıza həsr olunan "Bir nəfəs qədər" tamaşasını yenidən nümayiş etdirəcək.

II Qarabağ müharibəsi və şanlı Qələbəmizin ehtiva olunduğu səhnə işi SSRİ Xalq artisti Fikrət Əmirovun musiqisi əsasında hazırlanıb. Nümunənin ideya müəllifi və bədii rəhbəri Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, quruluşçu rejissoru Samir Qulamov, quruluşçu dirijoru və musiqi tərtibatçısı Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu rəssamı Vüsal Rəhim, quruluşçu baletmeysteri Əməkdar artistlər Leyla Ağayeva və Zakir Ağayev, konsertmeysteri Kamil Həsənov, rejissor assistentləri isə Sevinc Məmmədova və Əmrah Dadaşovdur.

Tamaşada Əməkdar artist Nahidə Orucova, aktyorlar Gülnarə Abdullayeva, Gülcahan Salamova, Əmrah Dadaşov, İbrahim Əlizadə, Nəzrin İsmayılzadə, Mehriban Zaliyeva, Səmədzadə Xasıyev, Hidayət Əliyev, Əli Kərimov, Murad Əliyev, eləcə də orkestr və balet artistləri iştirak edirlər.

***

Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrına gəlincə, o, pərdələrini sentyabrın 30-da ingilis yazıçısı Ceyn Ostinin romanı əsasında səhnələşdirilən "Qürur və qərəz" tamaşası ilə açacaq. Səhnə əsərinin quruluşçu rejissoru və musiqi tərtibatçısı İlqar Safat, quruluşçu rəssamı isə Nikita Sazonovdur.

# Teatrların yeni mövsümü

## Pərdələr sentyabrın 15-dən sonra açılacaq

Qeyd edək ki, bu günə qədər "İngilis ədəbiyyatının birinci xanımı" kimi tanınan Ceyn Ostinin "Qürur və qərəz" romanı maraqlı və son dərəcə həyati əsərdir. Ağlı, qüruru, bitkin xarakteri ilə hamıda rəğbət oyadan qəhrəman Miss Bennet isə gənc qızlara ən yaxşı nümunə ola bilər...

Əsər əsasında dünya kinematoqrafları onlarla film çəkiblər. Bu əsər həmçinin bir çox dünya teatrlarının repertuarına daxil edilib.

***

Əsas səhnəsi təmir-bərpadan sonra yenicə istifadəyə verilən, bu il 95-ci yubiley mövsümünü açan Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı izləyicilərinə maraqlı səhnə əsərləri təqdim edəcək. Kollektiv sentyabrın 24-də P.Cullifordun "Şirinlər" və A.P.Çexovun eyniadlı əsəri əsasında səhnələşdirilən "Qağayı" tamaşasını nümayiş etdirəcək.

***

Şuşa Dövlət Musiqili Dram Teatrı nisbətən daha cəld tərpənib desək, yerinə düşər. Belə ki, teatr 149-cu mövsümünü sentyabrın 10-da açacaq. Kollektiv sənətsevərlər üçün repertuarındakı maraqlı səhnə işlərindən olan M.F.Axundzadənin eyniadlı əsəri əsasında hazırlanan "Müsyö Jordan və dərviş Məstəli şah" tamaşasını təqdim edəcək.

Birhissəli məzhəkənin rejissoru teatrın baş rejissoru, Əməkdar artist Loğman Kərimovdur.

Qeyd edək ki, səhnə əsərində hadisələr Azərbaycanın Qarabağ bölgəsində cərəyan edir. Fransadan Qarabağa qonaq gələn Müsyö Jordan öz vətəninə qayıdanda gənc Şahbazı da özü ilə Fransaya aparmaq qərarına gəlir. Lakin bu arzunun qarşısını almaq istəyən Şahbaz bəyin nişanlısı və əmisi arvadı müxtəlif yollarla onu bu istəyindən daşındırmağa çalışırlar...

***





Dövlət Yuğ Teatrı isə mövsümünü premyera ilə açacaq. M.F.Axundzadənin "Mürafiə vəkilləri" əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın ilk nümayişi sentyabrın sonuncu həftəsinə nəzərdə tutulub. Tamaşanın quruluşçu rejissoru Gümrah Ömərdir. Səhnə işində Xalq artisti Vidadi Həsənov, aktyorlar Vüqar Hacıyev, Oqtay Mehdiyev, Amid Qasımov, Ziya Ağa və başqaları rol alırlar.

***

A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı sentyabrın 17-də balacaların görüşünə gələcək. Kollektiv məşhur nağılçı Hans Xristian Andersenin "Düyməcik" nağılını təqdim edəcək.

Tamaşanın səhnələşdirəni və quruluşçu rejissoru teatrın baş rejissoru, Əməkdar artist Qurban Məsimov, quruluşçu rəssamı Rəvanə Yaqubova, bəstəkarı Əməkdar artist Vüqar Camalzadədir. Musiqili nağıl-tamaşada rolları Əməkdar artist Cəmilə Allahverdiyeva, aktyorlar Rəhim Rəhimov, Samirə Nəcəfova, Nərmin Əhmədova, Yasin Abbasov və Ramiz Qəmbərov ifa edəcəklər.

***

Sentyabrın 17-də Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında da ilk nümayiş günü həyəcanı yaşanacaq. Belə ki, musiqi, rəqs və interaktiv uşaq oyunları ilə rəngarəng "Herkules" adlı müzikl-tamaşa nümayiş olunacaq. Müzikl-tamaşada balaca seyrçilər bir-birindən maraqlı musiqi parçaları və rəqs nömrələri ilə əyləncəli vaxt keçirəcəklər.

Onu da qeyd edək ki, paytaxt teatrları ilə yanaşı, bölgədəki əksər sənət ocaqları da mövsümün açılışı ilə bağlı planlarını müzakirə edib. Bəziləri stasionar, bəziləri isə səyyar tamaşa nümayişləri nəzərdə tutublar.

**Həmidə**

# Muzey eksponatına çevrilən xatirələr



Musiqimizin beşiyi, vaxtilə "Şərqin konservatoriyası" adlandırılan Şuşa və bu müqəddəs şəhərdə, möcüzəli mühitdə yetişən musiqi, sənət xadimləri bütün zamanlarda milli mədəniyyətimizin hərəkətverici qüvvəsi hesab olunublar. Beləcə, nəinki yaşayıb-yaratdıqları coğrafiyada və zamanda, ümumilikdə daim milli musiqimizin, xalq olaraq sənət salnaməmizin əsasını təşkil etməyi bacarıblar.

Bu gün hər bir azərbaycanlı üçün həsrətin vüsalla bitməsinin təntənəsi olan Şuşa və onun qoynunda özünə əbədi-yaşarlıq qazanan musiqi xadimlərini, nəinki vətənimiz, ümumən dünya musiqi xəzinəsinə əvəzsiz nümunələr bəxş edən şuşalı musiqi xadimlərinin bir qismini yad etmiş olacağıq. Özü də muzey eksponatına çevrilən yaradıcılıq nümunələri və şəxsi əşyalarının bələdçiliyi, işıqlı xatirələrinin "müşayiət"i ilə.

Məlum olduğu kimi, dövlət başçısı tərəfindən 2022-ci ilin ölkəmizdə "Şuşa İli" elan edilməsi haqqında sərəncam imzalanıb. Sərəncama əsasən, ölkəmizdə silsilə mədəni-kütləvi tədbirlər təşkil olunur, fərqli mövzulu layihələr həyata keçirilir.

Bu münasibətlə Musiqi Mədəniyyəti Dövlət Muzeyində də maraqlı aksiyalar reallaşdırılır. Onlardan biri də muzeyin "Şuşa İli"nə həsr etdiyi ekspozisiyasıdır.

Bu günlərdə muzeydə olarkən Ekspozisiya şöbəsinin müdiri Ülviyyə Şəmmədovanın bələdçiliyi ilə maraqlı və bir çoxumuz üçün yeni olan nümunələrin sərgiləndiyi Şuşa ekspozisiyası ilə də tanış olmaq imkanı qazandıq. Şuşa və ona sonsuz sevgiləri hakim olan musiqi sənətimizin görkəmli nümayəndələrinə aid bir neçə nümunə üzərində xüsusilə dayanaraq hər iki zalı gəzdik.

Muzeyin əməkdaşı zəngin fonddan seçilən nümunələr barədə ətraflı məlumat verərək qeyd edir ki, ekspozisiya mədəniyyət ocağının "Şuşa İli"nə bir hədiyyəsidir: "Muzeyin iki zalını Şuşa və şuşalı musiqi, incəsənət xadimlərini xatırladan eksponatlarla zənginləşdirməyə çalışmışıq. Burada bəstəkarların not əlyazmalarından şəxsi əşyalaradək müxtəlif nümunələri izləyə bilərsiniz. Bu yolla çalışdıq ki, ziyarətçilərimiz musiqi mədəniyyətimizi ölməz əsərləri ilə bəzəyən sənət korifeylərimizi daha yaxından tanısınlar".

İri və işıqlı zalın girişində bizi "müasir tarın atası" hesab edilən Sadıqcanın iri fotosu qarşılayır. Novator tarzənin fotosunu göstərərək onun tarın təkmilləşməsindəki xidmətlərini sadalayan bələdçi xanım ardınca guşəni zənginləşdirən digər fotolardan danışır: "Ölməz Fikrət Əmirovun atası, tanınmış tarzən, bəstəkar Məşədi Cəmil Əmirov Şuşanın sevilən sənət xadimlərindən olub. O həm də Azərbaycan musiqi tarixində muğamları ilk nota salanlardandır".

Ümumilikdə bir neçə foto və rəsmin nümayiş olunduğu hissədə C.Əmirovla yanaşı Zülfü Adıgözəlovun, Məcid Behbudovun, İslam Abdullayevin də təsvirləri var.

Ekspozisiyada Şuşada yaşayıb-yaratmış şair, rəssam, astronom, ədəbiyyatşünas, nəqqaş, tarixçi, xəttat və musiqişünas Mir Möhsün Nəvvaba aid guşə də var. Burada alimə aid bir neçə şəxsi əşya nümayiş olunur. Ziyarətçilər bu guşədə ayaq saxlayaraq ədibə aid kitab, xətkeş, stəkan, qəndqabı və böyüdücü şüşəni görə bilərlər.



Guşədə xanəndə Cabbar Qaryağdıoğlunun də muğam üçlüyü ilə fotosu var.



Ekspozisiyada XIX əsrdə Şuşada təşkil olunan musiqi məclisləri, həmçinin Şərq konsertlərinə aid təsvirlər də var. Məsələn, 1878-ci ildə Tiflisdə çəkilən fotoda şuşalı musiqi nümayəndələri təsvir olunurlar. Bildiyimiz kimi, həmin dönəmdə ölkəmizdə səsyazma studiyaları olmadığından ifaçılar səslərini musiqi vallarına yazdırmaq üçün müxtəlif ölkələrə üz tuturdular. O məkanlardan biri də Tiflisdəki səsyazma studiyası olub və nümayiş olunan şəkil də həmin anda əbədiləşdirilib. Biz burada məşhur ifaçı Bülbülcan (Əbdülbağı Zülalov) və onun musiqiçilər dəstəsini görürük.

Ekspozisiyada məşhur azərbaycanlı dirijor və bəstəkar Niyaziyə aid guşə də maraq doğurur. Burada onun rəsm əsəri, "Xosrov və Şirin" operasına çəkilmiş eskizləri ilə yanaşı, müəllifin not əlyazması, dirijor pultu, saatı, neyi və möhürü də nümayiş olunur. Məlum olduğu kimi, maestronun Bakıda mənzil-muzeyi də fəaliyyət göstərir və musiqi xadiminin xatirələrinin qorunduğu həmin məkan da bu muzeyin filialıdır. Yəni əsas ünvan kimi mənzil-muzey eksponatlarla daha zəngindir. Sadəcə, şuşalı və Şuşanı çox sevən musiqi xadimi kimi onun da adı bu ekspozisiyada nümayişə haqq qazananlar sırasındadır.

Muğam üçlüyü guşəsində Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi rol oynamış Keçəçioğlu Məhəmmədin qavalı, XIX əsrin ortalarına aid sədəfli tar və kamança da var. Onu da qeyd edim ki, muzeydə qorunan ən qədim tar 1908-ci ilə aiddir.

Xarici ruporlu qrammofon da diqqətçəkən eksponatlar arasındadır. Onu izləyici üçün maraqlı edən isə tam başqa nüansdır. Qrammofonun üzərində görkəmli xanəndə Məşədi Məmməd Fərzəliyevin nadir səs yazısının olduğu val var.

İndi isə bələdçimiz bizi müəllif not əlyazmalarının nümayiş olunduğu guşəyə tərəf aparır. Məlumat lövhəsindəki qeydləri oxuyuruq: "Dahi bəstəkar Üzeyir Hacıbəylinin "Ləzgi" rəqsinin not əlyazması", "Süleyman Ələsgərovun "Qarabağ" romansı", "Soltan Hacıbəyovun "İki nömrəli simfoniya"sı" və "Əşrəf Abbasovun "Şuşa" poeması və "Klavir"inin müəllif not əlyazması"...

Muzeyin şöbə müdiri Ü.Şəmmədova qeyd edir ki, muzeyin daimi ekspozisiyasındakı bəzi əşyalar hazırda Azərbaycan Milli İncəsənət Muzeyində təşkil olunan "Mədəniyyətimizin incisi – Qarabağ" adlı sərgidə nümayiş etdirilir.

Həmin materiallar arasında tanınmış bəstəkar Zülfüqar Hacıbəyova aid bəzi sənədlər də var. Burada onun şəxsi arxivindən bəzi sənədlər, eləcə də "Şərəf nişanı" ordeni, yazı ləvazimatları sərgilənir. Ümumən ailəyə aid zəngin eksponatlar Niyazinin Mənzil-Muzeyində qorunur.

Ekspozisiyanı dolaşarkən "Leyli və Məcnun" operasının 1915-ci ilə aid afişası, Hacıbəyov qardaşlarının fotosu və digər rəsmlər də diqqətimizi çəkir.

Şuşanın işğalından əvvəlki və azadlığından sonrakı iki ayrı fotoguşə də maraqlı tarixi anların fotoxronikaya çevrilən məqamları ilə diqqətəşayandır.

İkinci zalda görkəmli muğam ifaçısı Xan Şuşinskiyə aid rəsm əsəri və xanəndənin bəzi şəxsi əşyalarını yaxından görə bilərsiniz.

Nərd oynamağı sevən və müxtəlif məşhur musiqi xadimləri ilə oyun zamanı şəkillər çəkdirən Soltan Hacıbəyovun nərdi də eksponatlar arasındadır. Burada bəstəkarın oğlu İsmayıl Hacıbəyov tərəfindən çəkilən rəsmləri də izləyə bilərsiniz.

Şuşa zalında hazırda ölkəmizdə və ondan kənarda yaşayıb-yaradan şuşalı musiqiçilərin fotoları da nümayiş olunur.

Musiqi həyatımızın məşhur şuşalı qadınlar – müğənni Süreyya Qacar və musiqişünas Aida Tağızadənin də fotoları sərgiyə rəng qatan nümunələrdəndir.

Eksponatlar arasında şuşalı musiqişünas, Qara Qarayevin tələbəsi Nərgiz Şəfiyeva tərəfindən muzeyə hədiyyə olunmuş piano da var.

Ümumilikdə həyat və yaradıcılıq yolundan Şuşa keçən mədəniyyət xadimlərinin yaddaş və xatirə toplusu olan Şuşa sərgisi izləyənlərə həm Azərbaycan musiqi tarixinin böyük bir hissəsi ilə tanışlıq imkanı verir, həm də qala-şəhərə, qiyabi də olsa, səfər vəd edir...

**Həmidə Nizamiqızı**

# Şuşalı bəstəkarlar

IV yazı

"Şuşa İli" münasibətilə qala-şəhərimizin Azərbaycanın musiqi mədəniyyətinə bəxş etdiyi sənətkarlar haqqında silsiləmizi davam etdiririk. "Şuşalı bəstəkarlar" rubrikasında bu dəfə Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndələrindən Xalq artistləri Süleyman Ələsgərov və Vasif Adıgözəlovu yada salacağıq.

Süleyman Ələsgərov zəngin yaradıcılıq yoluna malik bəstəkar-pedaqoqlarımızdandır. Onun yaradıcılığı Azərbaycan professional musiqi tarixinin parlaq bir səhifələrindəndir. Mahnılardan tutmuş, operaya kimi rəngarəng yaradıcılıq nümunələrinin müəllifi olan sənətkar həm də aydın vətəndaş mövqeyi olan şəxsiyyətlərdən idi.

Süleyman Əyyub oğlu Ələsgərov 1924-cü ilin 22 fevralında Şuşada anadan olub. Uşaqlıq illərindən musiqiyə böyük maraq göstərən Süleyman Şuşa dağlarının ucalığından, çəmənlərinin ətrindən, bulaqlarının saflığından elə bəhrələnmişdi ki, ömrü boyu ilhamının ünvanı Şuşa idi.

1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını (indiki BMA) bitirən bəstəkar 2 opera ("Bahadır və Sona" və "Solğun çiçəklər"), 12 musiqili komediya, 2 simfoniya ("Gənclik" və "Vətən"), "Bayatı-Şiraz" simfonik muğamı, violonçel, fortepiano və simfonik orkestr üçün "İkili konsert", simfonik orkestr üçün uvertüralar, iki simfonik poema, 6 kantata, bir sıra kamera-instrumental əsərlər, tar ilə Azərbaycan xalq çalğı alətləri orkestri üçün 3 konsert, xor üçün, xalq çalğı alətləri orkestri üçün çoxsaylı əsərlərin müəllifidir. Sənətkarın 200-ə qədər mahnı və romansı bu gün də musiqisevərlərin qəlbini oxşayır.

S.Ələsgərovun geniş tamaşaçı, dinləyici kütləsi arasında tanınması 1940-cı illərin əvvəllərinə təsadüf edir. 1944-cü ildə Tbilisidə keçirilən Zaqafqaziya respublikalarının incəsənət ongünlüyündə gənc bəstəkar da iştirak edirdi. Tədbir çərçivəsində səsləndirilən bir çox mahnılar sırasında onun "Gözlə məni" mahnısı da vardı. O, bu mahnını 1942-ci ildə, 18 yaşında yazmışdı. İlk ifadan sonra mahnı dinləyicilər arasında geniş yayıldı, sevildi və müəllifə şöhrət gətirdi.

Hələ konservatoriyada məşhur pedaqoq, professor Boris Zeydmanın bəstəkarlıq sinfində təhsil alarkən geniş yaradıcılıq fəaliyyətinə başlamışdı. Sovet İttifaqı Qəhrəmanı, general Həzi Aslanova həsr olunmuş simfonik poema, "Məhəbbət gülü" musiqili komediyasını, simli kvartet, skripka, violonçel və fortepiano üçün "Trio", "Xatirə" əsərlərini yazır. III kursda oxuyarkən simfonik orkestr üçün "Bayram uvertürası"nı, violonçel, fortepiano və simfonik orkestr üçün ikili "Konsert", nəhayət, diplom işi kimi "Vətən" simfoniyasını bəstələmişdi. Tələbə bəstəkarın bu əsərlərinin əksəriyyəti elə yazıldığı dövrdə musiqi ictimaiyyəti arasında rəğbətlə qarşılanmışdı və bu gün də konsertlərdə səsləndirilir.

Görkəmli bəstəkar Əşrəf Abbasov "Bayram uvertürası"nı bəstəkarın ən müvəffəqiyyətli əsərlərindən sayır: "Burada xalqilik, melodiya zənginliyi, harmoniya əlvanlığı... orkestrin parlaq səslənməsi, musiqi inkişafının qanunauyğunluğu və ümumi ahəngi uvertüranın bayramsayağı ifasına gətirib çıxarır".

Bəstəkarın simfonik muğam janrında "Bayatı-Şiraz" əsəri bu janrda "Şur", "Kürd-ovşarı" (F.Əmirov) və "Rast"dan (Niyazi) sonra yazılmış gözəl nümunələrdən hesab edilir. Sənətkarın kamera instrumental əsərləri də dəyərlidir. Bu əsərlərin bir çoxu ali və orta ixtisas musiqi məktəblərinin tədris proqramına da daxil edilib.

S.Ələsgərov yaradıcılığında musiqili səhnə əsərləri də xüsusi yer tutur. O, bütün yaradıcılığı boyu bu janr əsərlərə müraciət edib. Bəstəkarın musiqili komediya janrına xüsusi münasibəti, marağı olub. "Ulduz", "Özümüz bilərik", "Olmadı elə, oldu belə", "Milyonçunun dilənçi oğlu", "Hardasan, ay subaylıq?", "Sevindik qız axtarır", "Həmişəxanım" kimi operettaları Musiqili Komediya Teatrının repertuarında uzun müddət yer tutan ən uğurlu tamaşalardan olub. Bu gün də bu operettalara maraq azalmayıb.





İstedadlı bəstəkar həm də Azərbaycan xalq musiqisinin toplanmasında, nota köçürülməsində böyük fədakarlıq göstərib. Musiqi fondunda saxlanılan bir sıra muğamlar, rənglər ("Qarabağ şikəstəsi", "Segah rəngi" və s.), xalq mahnıları S.Ələsgərovun zəhmətinin bəhrəsidir. O, yurdumuzu qarış-qarış gəzərək yaddaşlarda yaşayan, el şənliklərində ifa olunan mahnıları seçərək nota köçürdü.

S.Ələsgərov həmişə tamaşaçılar tərəfindən sevilən, alqışlarla qarşılanan bəstəkarlardan olub. Həm kinofilmlərə, həm tamaşalara yazdığı musiqilər film və səhnə əsərlərinin təsir gücünü daha da artırıb, mütəxəssislərin diqqətini çəkib. Görkəmli bəstəkar 21 yanvar 2000-ci ildə Bakı şəhərində vəfat edib.

***

Vasif Adıgözəlov 1935-ci il iyulun 28-də Şuşada məşhur muğam ustası Zülfü Adıgözəlovun ailəsində dünyaya göz açıb. İlk musiqi təhsilini (piano) Azərbaycan Dövlət Konservatoriyası nəzdində 10 illik Musiqi məktəbində alıb. 1953-cü ildə konservatoriyaya daxil olub. Bəstəkarlıq üzrə Qara Qarayevin, fortepiano üzrə Simuzər Quliyevanın siniflərində təhsilini davam etdirib. 1959-cu ildə həmin təhsil ocağını iki ixtisas üzrə bitirib.

Vasif Adıgözəlovun yaradıcılığı milli musiqi mədəniyyətimizdə xüsusi yer tutur. Onun əsərləri nəinki ölkəmizin, dünyanın bir çox yerlərində, o cümlədən, Almaniya, Bolqarıstan, Çexiya, Meksika, Kosta-Riko, Venesuela, Kuba, Türkiyə, İran və keçmiş SSRİ-nin bir sıra respublikalarının musiqi ictimaiyyətinə yaxşı tanışdır.

Bəstəkarın yaradıcılığı çox geniş və rəngarəngdir. Onun müxtəlif musiqi janrlarında yazdığı yüksək səviyyəli sənət əsərləri geniş dinləyici kütləsinin rəğbətini qazanıb. Bəstəkar 2 operanın ("Ölülər", "Natəvan"), 6 musiqili komediyanın, o cümlədən "Nənəmin şahlıq quşu", bəstəkar Ramiz Mustafayevlə birgə yazdığı "Hacı Qara", "Boşanaq, evlənərik", "Aldın payını, çağır dayını", həmçinin "Odlar yurdu", "Qarabağ şikəstəsi", "Çanaqqala – 1915", "Qəm karvanı" oratoriyalarının, 3 simfoniyanın, "Segah" muğam-simfoniyasının, "Mərhələlər", "Afrika mübarizə edir" simfonik poemalarının, 5 instrumental konsertin, çoxlu sayda kamera-instrumental əsərlərin, 100-ə qədər mahnı və romansın, dram tamaşalarına və kinofilmlərə musiqinin müəllifidir.

Bəstəkarın müxtəlif janrları əhatə edən yaradıcılığının çox hissəsini fortepiano üçün musiqilər təşkil edir. Bu da təsadüfi deyil. Onun bir pianoçu kimi istedadı musiqi ictimaiyyəti tərəfindən həmişə yüksək qiymətləndirilib. Bəstəkar hələ tələbəlik illərindən başlayaraq fortepiano üçün prelüdlərdən tutmuş irihəcmli instrumental əsərlər – piano və orkestr üçün 3 konsert, skripka və orkestr üçün, violonçel və orkestr üçün konsert yazıb.

V.Adıgözəlovun yaradıcılığında monumental vokal-simfonik əsərlər də üstünlük təşkil edir. Onun müxtəlif illərdə bəstələdiyi "Odlar yurdu", "Qarabağ şikəstəsi", "Çanaqqala – 1915" oratoriyaları xalqımızın, həmçinin Türkiyə türklərinin tarixini, onun azadlıq və müstəqillik uğrunda mübarizəsini tərənnüm edən yüksək vətənpərvərlik ruhunda yazılmış diqqətəlayiq əsərlərdir.

İri monumental əsərlərlə yanaşı, bəstəkarın mahnıları da öz səmimi, ecazkar melodiyası ilə xalqımızın qəlbinə yol tapıb. Onun dillər əzbəri olan "Qərənfil", "Bakı", "Xoşum gəlir", "Naznaz", "Şuşa laylası", "Ana" kimi mahnıların insanın ülvi hisslərinin yüksək bədii təzahürüdür.

Azərbaycan musiqi ictimaiyyəti V.Adıgözəlovu həm də fəal ictimai xadim kimi tanıyır. O, müxtəlif illərdə Bakı Musiqi Texnikumunda direktor, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblında, Azərbaycan Dövlət Filarmoniyasında bədii rəhbər, Bakı Musiqi Akademiyasında kafedra müdiri və Azərbaycan Bəstəkarlar İttifaqında birinci katib kimi çalışaraq böyük təşkilatçılıq qabiliyyəti göstərməklə yanaşı, öz səmimi və mehriban xasiyyəti ilə ictimaiyyətin dərin rəğbətini qazanıb.

Muğamlarımızın mahir bilicisi, görkəmli xanəndə Zülfü Adıgözəlovun ailəsində doğulub boya-başa çatmış Vasif Adıgözəlovun xalq musiqisi mühitində tərbiyə olunması onun yaradıcılığının milli zəmində formalaşmasına bilavasitə təsir göstərib. Müasir bəstəkarlıq texnikasının incəliklərini mənimsəməklə pianoçuluq məharətinə yiyələnməklə yanaşı, xalq musiqi qaynaqlarından bəhrələnərək öz zəngin təxəyyülünün məhsulu olan orijinal əsərlər yaradıb.

Görkəmli bəstəkarın 80 illik yubileyi 2015-ci ildə ölkəmizdə dövlət səviyyəsində geniş qeyd olunub.

Vasif Adıgözəlov 2006-cı il sentyabrın 16-da dünyasını dəyişib.

**Lalə Azəri**

# Qazax Milli Universitetinin əməkdaşı Əlyazmalar İnstitutunda olub

Əl-Fərabi adına Qazax Milli Universiteti Şərqşünaslıq fakültəsinin dosenti, həmin universitetin nəzdində Mədəni irs və əlyazmalar fondunun rəhbəri, filologiya üzrə fəlsəfə doktoru Zübeydə Şafkam AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun qonağı olub.

Görüşdə Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli elm ocağı haqqında məlumat verib. Söhbət zamanı gələcəkdə birgə əməkdaşlıq layihələri müzakirə olunub, qarşılıqlı elmi ezamiyyələrin təşkil edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Zübeydə Şafkam öz növbəsində təmsil etdiyi elmi müəssisədə yaradılmış fondun işinin təşkili zamanı dünyanın aparıcı əlyazma mərkəzləri ilə yanaşı, M.Füzuli adına Əlyazmalar İnstitutunun təcrübəsini də əsas götürdüklərini vurğulayıb.

Öz araşdırmaları barədə məlumat verən alim bildirib ki, hazırda Azərbaycan dilində qələmə alınan unikal yazılı folklor abidəsi "Rüstemnameyi-türki" əlyazmasının üzərində tədqiqat aparır. Bakıya gəlişinin də əsas səbəblərindən biri həmin əsərin əlyazma nüsxələri haqqında ətraflı məlumat toplamaqdır.

Görüşdən sonra qazax alimi institutun ekspozisiya zalında nümayiş etdirilən nadir eksponatlar, əlyazma nüsxələri ilə tanış olub.

Zübeydə Şafkama Əlyazmalar İnstitutunun son nəşrləri hədiyyə olunub və xatirə şəkli çəkilib.

# “Durnam, gedər olsan bizim ellərə...”

## Müəmmalar haləsinə bürünən Ağ Aşıq ömrü



Ağız ədəbiyyatımızın ünlü sənətkarlarından biri də yaddaşlarda Ağ Aşıq kimi qalan Aşıq Allahverdi olub. Haqqında mənbələrdə səhih məlumat çox az olsa da, ancaq onun XVIII əsrin ikinci yarısında, təxminən 1775-ci ildə dünyaya göz açdığı bildirilir.

XVIII-XIX əsr Göyçə aşıq mühitinin yetirməsi olan Ağ Aşığın həyatı və yaradıcılığı müəmmalar haləsinə bürünüb.

Araşdırmalarda qeyd edilir ki, Allahverdinin anadangəlmə saçı, qaşı və kirpiyi ağ olub. Həyata baxışı və yaradıcılığı da müasirlərindən fərqlənib. Başqa bir araşdırmada isə deyilir ki, Ağ Aşığın babası Şeyx Osman sufi-dərviş təkkəsinin mürşidi olub. Müridləri ilə quzeydən – Qazax-Şəmşəddil, yaxud da həmin bölgəyə aid Qaraqoyunludan Şərur bölgəsinə gəliblər. Araz qırağındakı Kosacan kəndində məskunlaşıblar. Şeyx Osman və onun oğlu Qara Osmanoğlu musiqiyə, aşıq sənətinə çox bağlı olublar. Aşıqlıq etməsələr də, gözəl saz çalıb-oxuyublar.

Ağ Aşıq Cənubi Azərbaycandan, Araz çayına yaxın bir kənddən Telli Cəfərin qızı Süsənbər xanımla ailə qurur. Onun eşqinə “Süsənbəri” adlı bir şeir də yazır. El şənliklərində, toy-düyündə bu şeiri aşıq havası üstündə oxuyur. Aşığın bu nikahdan İsmayıl və Məhərrəm adlı oğulları olub.

Aşıq Allahverdi 20-25 yaşında ikən ailəyə bədbəxtlik üz verir. Atası qəflətən vəfat edir. Bu itkidən sarsılan Allahverdi bir müddət özünə gələ bilmir. Xeyli vaxt elin toy-düyündə iştirak etmir. Demək olar ki, ürəkdən sevdiyi, qəlbən bağlandığı eli-obadan ayrı düşür. Bir tərəfdən də ailənin ağır güzəranı onu üzür. Çox çətinliklə özünü ələ alan aşıq Kosacandan köçür və Göyçə mahalında məskun olur. İlk günlərdən el şənliklərində yaxından iştirak edir. Təzə yurdda hörmət və ehtiramla qarşılanır. Günü-güzəranı yaxşılaşır. Allahın verdiyinə şükür edir və deyir:

*Qəm çəkmə, ey könül, fani dünyada,*
*Qılınc çəksən dərdə, aha yaxşıdı.*
*İbadət et, leyli-nahar sal yada,*
*Şükür etsən, bir Allaha yaxşıdı...*

*Ağ Aşıq, elini etdilər talan,*
*Namərdlər mərd olub, mərdlərsə yalan.*
*Atalar ölərkən yurdunda qalan*
*Qeyrətli övladı daha yaxşıdı.*

Xalq arasında Ağ Aşıq haqda bir neçə rəvayət formalaşıb. Günümüzə gəlib çatan həmin rəvayətlərin birində deyilir ki, Ağ Aşıq butalı, yəni, haqq aşığı idi. Onun ifası və oxumasından sağalmaz xəstələr şəfa tapardı. Aşığın bu möcüzəsi-təbibliyi Göyçə hüdudlarını aşaraq Şərqi Anadolu ellərinə qədər yayılır. Həmin vaxtlar Sərdar Hüseyn paşa bərk xəstələnir. Yuxusuzluqdan əziyyət çəkir. Onu sağaltmaq üçün həkim soraqlayırlar. Ağ Aşıqla görüşüb xəstənin yanına aparırlar. O, hər gün 3-4 saat könülaçan ifaları ilə xəstənin ruhunu oxşayır. Bir gün “Ruhani” havası ilə xəstəyə yaxınlaşır. İllərcə gözünə yuxu gəlməyən Sərdar Hüseyn paşa musiqinin təsiri altında qəflətən yuxuya dalır. Hətta elə hesab edirlər ki, o, öldü. Ancaq hər şey çox yaxşı qurtarır. Sərdar Hüseyn paşa çox keçmir yuxudan ayılır. Bir müddət sonra onun ruhi pozğunluğu bərpa olur. Ağ Aşıq beş il Anadoluda qalır və paşanı musiqi ilə müalicə edir.

Sərdar Hüseyn paşa tam sağalandan sonra Ağ Aşıq rüsxət istəyir. Eldən-obadan çoxdan ayrıldığını xatırladır. Paşa aşığa yəhəryüyənli bir at, müxtəlif hədiyyələr, pul verib yola salır. Ağ Aşıq Göyçə ellərinə yaxınlaşdıqca könlü qubar edir və deyir:

*Durnam, gedər olsan bizim ellərə,*
*Qatıq söylə, qaymaq söylə, yağ söylə.*
*Əgər soruşsalar Ağ Aşığın halın,*
*Boynu armud saplağı, canı sağ söylə,*

Ağ Aşıq ustad sənətkar kimi bir çox el-obada ağır məclislər yola verib. Qaynaqlarda hətta onun Misir və Şərqi Türküstanda da olduğu bildirilir.

Ağ Aşığın yaradıcılığı dövrün feodal ara müharibələri vaxtı əldən-ələ keçərək itib-batıb. Günümüzə isə çox az bir qismi gəlib çatıb. Aşıq-şairin “Kəklik” adlı bir qoşmasında deyilir:

*Baharın gülşən çağında,*
*Uçar daşdan-daşa kəklik.*
*Ovçu görsə səkər asta,*
*Sinər daşdan-daşa kəklik.*

*Məskən salar qayalarda,*
*Özü göyçək boyalarda.*
*Gözdən uzaq sayalarda*
*Çökər daşdan-daşa kəklik.*

*Süsənbərim göylər mahı,*
*Ağ Aşığın qibləgahı.*
*Əyir belim yarın ahı*
*Bükər başdan-başa kəklik.*

Ağ Aşıq qoşma, gəraylı, təcnislərlə yanaşı, könül rübabının səsinə səs verib, təsirli bayatılar qoşaraq keşməkeşli həyatını həzin, kövrək duyğularla ifadə edib:

*Mən aşıq, gəldi keçdi,*
*Günlərim gəldi keçdi.*
*Yarın odlu baxışı*
*Sinəmi dəldi keçdi.*

Ağ Aşıq ustad sənətkar olmaqla bərabər, həm də öz yetirmələri ilə də ad-san qazanıb. Görkəmli saz-söz ariflərimizdən Aşıq Alı onu öz ustadı hesab edib. Ağ Aşıq təxminən 1880-ci ildə vəfat edib.

**Savalan Fərəcov**

# “Qarabağın Antik dövr alban abidələri”

## Ölkəmiz Tacikistanda “Gənc arxeoloqların məktəbi”ndə təmsil olunub

MDB ölkələrinin Beynəlxalq Humanitar Əməkdaşlıq Fondunun təşkilatçılığı ilə Tacikistanda qədim Sarazm əkinçilik məskənində “Gənc arxeoloqların məktəbi” təşkil olunub.



Məktəbdə Azərbaycan, Tacikistan, Rusiya, Belarus, Qazaxıstan və Özbəkistandan arxeoloqlar və gənc mütəxəssislər məruzələrlə çıxış edib, arxeoloji irsin qorunmasına dair vacib məsələləri müzakirə etməklə yanaşı, yeni təcrübə qazanıblar.

Tədbirdə ölkəmizi AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Gülanə Əliyeva, kiçik elmi işçi Vüsal Əliyev, Bakı Dövlət Universitetinin magistrantı Əvəz Orucov və Tarix fakültəsinin müəllimi, Milli Məclisin deputatı Naqif Həmzəyev təmsil ediblər.

İnstitutdan bildirilib ki, Gülanə Əliyeva “Qarabağın Antik dövr alban abidələri” mövzusunda məruzə ilə çıxış edib. Məruzədə Ağcabədi, Ağdam, Füzuli, Xocavənd və Qarabağın digər rayonlarının ərazisindəki Antik dövr abidələrindən bəhs olunub. Qalatəpə, Nərgiztəpə, Qaratəpə, Üzərliktəpə və digər bu kimi şəhər və kənd tipli yaşayış yerləri, küp və torpaq qəbirlərin xüsusiyyətləri, eləcə də əldə edilmiş əmək alətləri, bəzək əşyaları, metal məmulatı, keramika kimi maddi mədəniyyət nümunələri haqqında məlumat verilib.

Vüsal Əliyev isə “Mil düzünün Orta əsr abidələri (IX-XIII əsrlər)” mövzusunda məruzə ilə çıxış edərək ərazidən aşkar olunmuş müxtəlif maddi mədəniyyət nümunələri haqqında söz açıb.

Tədbir çərçivəsində iştirakçılar Sarazm, Erkən Orta əsr abidəsi Pəncikənd, Hisar qalası, fars-tacik ədəbiyyatının banisi A.Rudəkinin türbəsi, A.Rudəki adına Pəncikənd Diyarşünaslıq Muzeyi və Tacikistan Milli Muzeyində olublar.

Nümayəndə heyətimiz Azərbaycan Respublikasının Tacikistandakı səfiri Əlimirzamin Əsgərovla görüş keçiriblər.

Tədbirin bağlanış mərasimində Tacikistan Milli Elmlər Akademiyasının prezidenti, akademik Farhod Rahimi iştirakçılara sertifikatlar təqdim edib.

Bildirək ki, 100 hektara yaxın ərazini əhatə edən, Eneolit dövrü abidələrindən olan Sarazm 2010-cu ildə UNESCO-nun Dünya İrsi Siyahısına salınıb.

# Gəmiqaya təsvirləri ibtidai mədəniyyətimizə işıq salır



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı, AMEA Naxçıvan Bölməsi və M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası əməkdaşlarının iştirakı ilə “Gəmiqaya təsvirləri ibtidai mədəniyyətimizin nümunəsi kimi” mövzusunda tədbir keçirilib.

Tədbirdə çıxış edən Naxçıvanşünaslıq Mərkəzinin elmi katibi Nihad Tarverdiyev bildirib ki, süjet və kompozisiyası ilə fərqlənən Gəmiqaya rəsmlərinin mövzusu əcdadlarımızın inancına və əmək fəaliyyətinə həsr olunub. Ona görə də xalqımızın həyat tərzi, qədim adət-ənənələri ilə əlaqədar yaranmış Gəmiqaya rəsmləri qiymətli tarixi və təsviri sənət nümunələri kimi mədəniyyətimizin ilkin inkişaf mərhələlərini xronoloji ardıcıllıqla izləməyə və öyrənməyə imkan verir.

Qeyd olunub ki, xalqımızın tarixi keçmişinin öyrənilməsi baxımından Gəmiqayanın çox əhəmiyyətli abidə olduğunu vurğulayan ümummilli liderimiz Heydər Əliyev vaxtilə deyib: “Naxçıvanın gözəl təbii abidələri var. Gəmiqaya dünyada məşhur bir yerdir... O, bizim böyük sərvətimizdir. Orada insanın qoyduğu izlər var. Bu, Azərbaycanın, onun ayrılmaz hissəsi olan Naxçıvanın tarixidir. Bunlarla məşğul olmaq lazımdır”.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu Antik və Orta əsrlər arxeologiyası şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilov çıxış edərək diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələrinin qorunması və bərpası istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublika Ali Məclisi sədrinin 2001-ci il aprelin 26-da imzaladığı “Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında” sərəncamından sonra Gəmiqaya rəsmləri elmi əsaslarla öyrənilib, bu mövzuda onlarla elmi məqalə və kitab yazılıb, “Gəmiqaya” Tarix-Bədii Qoruğu yaradılıb. 2005-ci ildə Gəmiqaya abidəsinə beynəlxalq ekspedisiya təşkil edilib, Gəmiqaya ətrafındakı arxeoloji abidələrdə tədqiqatlar aparılaraq etnoqrafik, folklor və onomastik materiallar toplanıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri yanında Bilik Fondunun tədbirlər planına əsasən, 2016-cı ildə “Gəmiqaya” Tarix-Bədii Qoruğunda və ona bitişik ərazilərdəki qayaüstü təsvirlərlə bağlı tədqiqat işləri aparılıb. Gəmiqaya rəsmləri Azərbaycanın qədim tarixinin, maddi və mənəvi mədəniyyətinin, incəsənətinin, eyni zamanda xalqımızın etnogenez tarixinin öyrənilməsi üçün olduqca zəngin, dəyərli mənbədir.

Sonda tədbir iştirakçılarına mərkəzdə təşkil edilən kitab sərgiləri haqqında məlumat verilib.

## Xatirə təqvimi — 6-9 sentyabr

### Azərbaycan

**6 sentyabr 1936** – SSRİ Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə “SSRİ Xalq artisti” adı təsis olunub. Sovet İttifaqında mədəniyyət xadimlərinə verilən ən yüksək fəxri ad olub. Azərbaycandan bu ada ilk olaraq Üzeyir Hacıbəyli, Bülbül, Şövkət Məmmədova (1938) layiq görülüblər.

**6 sentyabr 1945** – Tanınmış xanəndə Məcid Behbudalı oğlu Behbudov (18.4.1873 – 1945) vəfat edib. Şuşada dünyaya gələn sənətkar Bakıda, Gəncədə opera tamaşalarında çıxış edib. 30-cu illərdə İrəvanda, sonra Qazaxda yaşayıb. Böyük müğənni Rəşid Behbudovun atasıdır.

**6 sentyabr 2015** – Xalq artisti İlham Təvəkkül oğlu Əsgərov (16.7.1958 – 2015) vəfat edib. Akademik Milli Dram Teatrında, televiziya tamaşalarında, filmlərdə (“Doğma sahillər”, “Biz qayıdacağıq”) maraqlı rollar oynayıb. Filmlərin səsləndirilməsində iştirak edib.

**7 sentyabr 1914** – Teatrşünas və ədəbiyyatşünas, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü Cəfər Haşım oğlu Cəfərov (1914 – 19.9.1973) Bakıda anadan olub. Yazıçılar İttifaqının məsul katibi, mədəniyyət nazirinin müavini işləyib. “Rejissor sənəti”, “Azərbaycan Dram Teatrı” və s. kitabların müəllifidir.

**7 sentyabr 1939** – Şair, tərcüməçi, ssenarist Mənsur Fəxri (Mənsur Fəxri oğlu Vəkilov; 1939-2009) Bakıda anadan olub. “Literaturnı Azerbaydjan” jurnalının baş redaktoru işləyib. Rus dilində yazıb, Azərbaycan şairlərinin əsərlərini ruscaya tərcümə edib.

**8 sentyabr 1903** – Əməkdar artist Dadaş Kamil oğlu Şaraplı (Məmmədov; 1903-1959) Bakıda doğulub. Akademik Dram Teatrının aktyoru olub.

**8 sentyabr 1906** – Xalq artisti Yelena Vladimirovna Taryeva (1906-1962) Odessada doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası (1938-ci ildən) olub.

**8 sentyabr 1949** – Əməkdar incəsənət xadimi Hüseynağa Ağahüseyn oğlu Atakişiyev (1949 – 9.4.2006) Bakıda anadan olub. Şəki Dövlət, Akademik Milli Dram teatrlarında baş rejissor işləyib. 1989-cu ildə Gənclər Teatrını (2009-cu ildə Gənc Tamaşaçılar Teatrına birləşdirilib) yaradıb. “Üzeyir ömrü” (1981) filmində çəkilib.

**8 sentyabr 1982** – Xalq artisti, teatr rejissoru Ələsgər Məmmədtağı oğlu Şərifov (25.12.1909 – 1982) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, “Səbuhi” filmində M.Ş.Vazeh rolunda çəkilib.

**8 sentyabr 2015** – Xalq artisti, tanınmış kamança ifaçısı Habil Mustafa oğlu Əliyev (28.5.1927 – 2015) vəfat edib. Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. Filmlərdə musiqiləri ifa edib.

**9 sentyabr 1937** – Əməkdar mədəniyyət işçisi Aybəniz Səməd qızı Vəkilova (1937 – 13.6.2009) anadan olub. Səməd Vurğunun Ev-Muzeyinin baş mühafizi və direktoru (2006-2009) işləyib.

**9 sentyabr 1939** – Xalq artisti İrina Aleksandrovna Perlova (1939 – 14.9.2010) anadan olub. Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında (rus bölməsi) quruluşçu rejissor işləyib.

**9 sentyabr 1991** – Dünya şöhrətli xalçaçı alim, dekorativ sənət ustası, Xalq rəssamı Lətif Hüseyn oğlu Kərimov (1906 – 9.9.1991) vəfat edib. “Azərbaycan xalçalarında ornament”, “Azərbaycan xalçası” çoxcildliyi və s. kitabların müəllifidir. L.Kərimovun təşəbbüsü ilə Bakıda Xalça Muzeyi təşkil olunub.

### Dünya

**6 sentyabr 1928** – Rus bəstəkarı və dirijoru, SSRİ Xalq artisti Yevgeni Svetlanov (1928-2002) anadan olub.

**6 sentyabr 2007** – Dünya şöhrətli italyan opera müğənnisi Luçano Pavarotti (Luciano Pavarotti; 12.10.1935 – 2007) vəfat edib.

**7 sentyabr 1726** – Fransız bəstəkarı Fransua Andre Filidor (1726-1795) anadan olub. Komik operaları ilə tanınıb, 30-dan çox opera yazıb: “Pinəçi Blez”, “Bağban və onun ağası” və s.

**7 sentyabr 1870** – Rus yazıçısı Aleksandr İvanoviç Kuprin (1870–1938) anadan olub. “Molox”, “Döyüş”, “Zamanın təkəri”, “Janeta”, “Qranat qolbağı” və s. roman-povestlərin müəllifidir.

**7 sentyabr 1909** – Yunan mənşəli Amerika rejissoru Elia Kazan (Elia Kasancoğlu; 1909–2003) İstanbulda anadan olub. İki dəfə “Oskar” laureatıdır: “Centlmen razılaşması” (1947) və “Limanda” (1954).

**8 sentyabr 1830** – Fransız şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1904) laureatı Frederik Mistral (Frederic Mistral; 1830-1914) anadan olub. Kitabları: “Mireyo”, “Qızıl adalar”, “Zeytun yığımı”.

**8 sentyabr 1841** – Görkəmli çex bəstəkarı Antonin Leopold Dvorjak (1841-1904) anadan olub. 10 opera (“Su pərisi”, “Armida” və s.), 9 simfoniya, 5 simfonik poema və başqa əsərlərin müəllifidir.

**8 sentyabr 1923** – Dağıstanın Xalq şairi Rəsul Həmzətov (1923 - 3.11.2003) anadan olub. Milliyyətcə, avardır. Kitabları: “Dostları qoruyun”, “Mənim Dağıstanım” və s. Şeirlərinə populyar mahnılar bəstələnib. Sosialist Əməyi Qəhrəmanı adına, Lenin mükafatına layiq görülüb.

**8 sentyabr 1937** – Tanınmış türk kinoaktyoru Cüneyt Arkın (əsl adı Fahrettin Cüreklibatur; 1937 – 28.6.2022) Əskişəhərdə doğulub. 300-dək filmdə çəkilib: “Qürbət quşları”, “Hərəmxanada dörd qadın”, ”İntiqam atəşi”, “Dodaqdan qəlbə”, “Arım, balım, pətəyim” və s. Şeirlər yazıb.

**9 sentyabr 1583** – İtalyan bəstəkarı, fuqa musiqi alətinin yaradıcılarından biri Cirolamo Freskobaldi (Girolamo Frescobaldi; 1583-1643) anadan olub.

**9 sentyabr 1769** – Ukrayna ədəbiyyatının banilərindən biri, şair və yazıçı İvan Kotlyarovski (1769-1838) anadan olub. Əsərləri: “Üzü köçürülmüş Eneida”, “Natalka Poltavka” və s.

**9 sentyabr 1828** – Böyük rus yazıçısı və mütəfəkkiri Lev Nikolayeviç Tolstoy (1828 – 20.11.1910) Tula quberniyasının Yasnaya Polyana kəndində doğulub. Əsərləri: “Ailə xoşbəxtliyi”, “Hərb və sülh”, “Anna Karenina”, “Dirilmə” (romanlar), “Kreyser sonatası”, “Kazaklar”, “Hacı Murad” (povestlər), “Canlı meyit” (pyes) və s.

**9 sentyabr 1908** – İtalyan yazıçısı Çezare Paveze (Cesare Pavese; 1908-1950) anadan olub. “Yoldaş”, “Xoruz banlamayınca”, “Gözəl yay”, “Ay və tonqallar” və s. romanların müəllifidir.

**Hazırladı: Vüqar Orxan**

# Van Qoqun 135 yaşlı “Döyüşən pəhləvanlar”ı aşkara çıxarılıb

## Rəsm 3D teksturalı fırça ilə bərpa edilib

İngilis mütəxəssisləri əfsanəvi holland rəssamı Vinsent Van Qoqun (1853-1890) 135 il əvvəl çəkdiyi iki döyüşən kişini əks etdirən bir qədər korlanmış tablosunu aşkara çıxararaq yenidən bərpa ediblər.



Beş ay davam edən layihədə neyrobioloq Entoni Buraşed və fəlsəfə doktoru, fizik Corc Kann 3D teksturalı fırça vuruşlarından istifadə edərək rəsmi tam rəngli formada bərpa etməyə çalışıblar.

Riyaziyyatçı və art-direktor Jesper Eriksson ilə birlikdə işləyən iki alim mümkün olan ən yaxşı nəticəni əldə etmək üçün rentgen şüalarından, süni intellektdən və 3D çapdan istifadə ediblər. Tədqiqatçılar hollandiyalı rəssamın bu əsərini orijinal vəziyyətinə qaytara bilmək üçün xüsusi alqoritm də hazırlayıblar.

“İki döyüşən pəhləvanın təsviri 1886-1887-ci illərdə yağlı boya ilə 100x80 sm ölçülü kətan üzərində yaradılıb. Bizim versiyamızın orijinal rəsmə nə qədər bənzədiyini indidən söyləmək mümkün deyil. Lakin bərpa etməyə çalışdığımız rəsm əsəri orijinal görünüşə tam yaxındır və bu, müasir texnologiyaların köməyi ilə bu gün əldə edə biləcəyimiz ən uyğun vasitədir”, – deyə ekspertlər izah ediblər.

Bununla belə, tədqiqatçılar son texnologiyanın bu cür layihələrin icrası üçün hələ ki, mükəmməl olmadığını da etiraf edirlər.

Rəsm əsəri hazırda Hollandiyanın Kröller-Müller Muzeyində qorunur.

# Ankarada "Beynəlxalq Anadolu Günləri" festivalında "Azərbaycan otağı"

Ankaranın Etimesgut Bələdiyyəsi tərəfindən 24-cü "Beynəlxalq Anadolu Günləri" Mədəniyyət və Sənət Festivalı təşkil olunub.

Festival Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY, Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Türk Cümhuriyyətinin səfirlikləri və digər qurumların dəstəyi ilə gerçəkləşib.

26 avqust – 4 sentyabr tarixlərini əhatə edən festivalın məqsədi türk dövlətləri və xalqlarının birliyini, bərabərliyini daha da möhkəmləndirmək, mədəniyyət və incəsənətinin yaşadılmasına, təbliğinə töhfə verməkdir.



Türkiyədəki səfirliyimiz tərəfindən festival çərçivəsində "Azərbaycan otağı" qurulub. Burada Azərbaycanın zəngin mədəniyyəti, tarixi, incəsənəti təbliğ olunur. Böyük maraqla qarşılanan "Azərbaycan otağı"nda ziyarətçilərə mədəni zənginliklərimiz haqqında məlumat verilib.

Festivalın ilk günlərində TÜRKSOY, Qars, Ərdahan, İğdır və Adananı təmsil edən ayrı-ayrı qurumlar tərəfindən mədəni proqramlar təşkil olunub. Sonrakı günlərdə qeyd olunan səfirliklərin və müxtəlif dərnək və qurumların iştirakı ilə maraqlı tədbir və təqdimatlar reallaşıb.

Festival sentyabrın 4-də Türk Bəyləri Kənd Meydanında Etimesgut Bələdiyyəsi və Azərbaycan Səfirliyinin təşkil etdiyi konsert proqramı ilə başa çatıb.

# Almaniya paytaxtında Şuşa rüzgarı

Almaniyanın paytaxtı Berlində mədəniyyət paytaxtımız Şuşanın 270 illiyinə həsr olunmuş konsert keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, komitənin dəstəyi və Almaniyada fəaliyyət göstərən "Khari-Bülbül" Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə baş tutan konsert Şuşanın qədim, eyni zamanda müasir tarixini, 44 günlük Vətən müharibəsində şanlı Qələbəmizi, həmçinin Diaspor Gənclərinin Üçüncü Yay Düşərgəsini əks etdirən videogörüntülərin nümayişi ilə başlayıb.

Sonra Bakıdan gəlmiş "Ritm" rəqs qrupunun ifasında Azərbaycanın milli rəqsləri təqdim edilib.

Tədbirin sonunda Almaniya Azərbaycanlıları Alyansının sədr müavini, "Khari-Bülbül" Azərbaycan Mədəniyyət Mərkəzinin sədri Sevda Bədəliori və digərləri çıxış edərək iştirakçılara və qonaqlara minnətdarlıqlarını bildiriblər.



# Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzində Özbəkistanın Müstəqillik Günü

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) Özbəkistanın müstəqilliyinin 31-ci ildönümü münasibətilə bayram tədbiri keçirilib. Şənliyə gələnlər əvvəlcə mərkəzin foyesində yaradılan "İstiqlalının 31-ci ildönümü mübarək, əziz Özbəkistan!" adlı kitab və fotoşəkillərdən ibarət sərgi ilə tanış olublar.

Tədbirdə Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin rəhbərliyi, yerli azərbaycanlılar, qardaş ölkənin mədəniyyət xadimləri, ziyalılar, ali məktəblərin müəllimləri iştirak ediblər.

Tədbir iştirakçılarını bayram münasibətilə təbrik edən AMM-in direktoru Samir Abbasov Özbəkistanın müstəqillik illərində inkişafından danışıb. Deyib ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin rəhbərliyi ilə ölkədə siyasi, iqtisadi, mədəni-humanitar və digər sahələrdə köklü islahatlar aparılıb.



Direktor bu ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana rəsmi səfəri haqqında da danışıb, Özbəkistanın dövlət başçısı ilə səmərəli danışıqlar aparıldığını, əməkdaşlığın dərinləşdirilməsi istiqamətində sənədlər imzalandığını diqqətə çatdırıb: "Bununla da Azərbaycanla Özbəkistan arasında əməkdaşlığın yeni mərhələsinin əsası qoyulub".

S.Abbasov 44 günlük Vətən müharibəsi haqqında da məlumat verib, bildirib ki, Prezident Şavkat Mirziyoyevin təşəbbüsü ilə Özbəkistan işğaldan azad olunan Füzuli şəhərində böyük bir orta məktəbin tikintisini öz üzərinə götürüb və təhsil ocağının tikinti layihəsi artıq Azərbaycan Hökumətinə təqdim edilib.

"Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov və Özbəkistan Milli Universitetinin professoru Nigina Şermuxammedova ölkələrimiz arasında dostluq əlaqələrinin genişləndirilməsi, elm sahəsində əməkdaşlığın dərinləşdirilməsinin əhəmiyyətini qeyd ediblər.

Sonra Azərbaycan Mədəniyyət Mərkəzinin nəzdindəki "Azərbaycan qızları" rəqs ansamblının üzvləri milli rəqslərimizi, Bakıdan gələn gənc müğənni Mehdi Həsənov, həmçinin Rəna Əzizova, Yusif Əliyev, Timur Rəhmanov və Davron Kadırov Azərbaycan və özbək mahnılarını ifa ediblər.

# 79-cu Venesiya Film Festivalında 23 ekran əsəri yarışır

Avqustun 31-də dünyanın ən məşhur kinoforumlarından olan 79-cu Venesiya Film Festivalı başlanıb.




11 gün ərzində "Palazzo del Casino" və "Lido di Venezia" salonlarında dünya kinosunun yeni əsərləri ictimaiyyətə nümayiş etdiriləcək. Ümumilikdə müsabiqədə dünyanın müxtəlif ölkələrindən 23 ekran əsəri nümayiş olunacaq.

"Çoxlu ulduzlar gözlənilir, qırmızı xalça hər gün dolacaq. Timoti Şalame, Penelopa Kruz, Vircini Efira, Harri Stayls artıq iştiraklarını təsdiqləyiblər", – deyə festivalın direktoru Alberto Barbera vurğulayıb.

Festival müxtəlif qitələrdə çəkilmiş bir neçə filmin nümayişi ilə açılacaq. Onların arasında amerikalı rejissor Noa Baumbaxın "Ağ səs-küy" filmi də var. Ekran əsərinin süjeti Don Delillonun eyniadlı romanı əsasında qurulub. Əsas rollarda Adam Drayver və Qreta Qerviq çəkiliblər. Kann kinofestivalından fərqli olaraq, Venesiyada "Netflix" tərəfindən buraxılan filmlər də müsbət qarşılanır və bu, həmin filmlərə müsabiqədə iştirak etmək imkanı verir.

Festivalın əsas müsabiqəsində iştirak edən ekran əsərləri arasında ən çox gözlənilənlərdən biri də məşhur iranlı rejissor Cəfər Pənahinin "Ayılarsız" filmidir. Filmin baş qəhrəmanı C.Pənahinin özünün canlandırdığı rejissor obrazıdır. Məlum olduğu kimi, C.Pənahi uzun müddət təqiblərə məruz qalıb və bu, onun çəkdiyi ekran əsərində də əksini tapıb.

79-cu Venesiya Film Festivalı sentyabrın 10-da başa çatacaq.

# Bakıda hind modası nümayişi

Hindistanın Bakıdakı səfirliyi "ANM Exhibitions" sərgi şirkəti ilə birgə "JW Marriott Absheron Bakı" mehmanxanasında "Hindistan yaradıcılığı səhnədə" adlı eksklüziv moda nümayişi təşkil edib.



Tədbirdə rəsmilər, ticarət palatalarının nümayəndələri, iş adamları və media işçiləri, habelə Hindistanın tanınmış dizaynerləri – "CTC Mall"dan Sudeş Çabra, "Majestic by Japnah" brendindən Harmit və Qambir Cappah, "DeBeau" brendindən Bhavna Şarma və Samant Çauhan iştirak ediblər. Moda şousunun rəhbəri və xoreoqrafı Anup Banercidir.

Hindistanın Azərbaycandakı müvəqqəti işlər vəkili Vinay Kumar tədbirdə çıxışında bildirib ki, bu eksklüziv moda nümayişi Hindistan səfirliyi tərəfindən ölkəsinin müstəqilliyinin 75 illiyini qeyd etmək məqsədilə həyata keçirilən "Azadi Ka Amrit Mahotsav" təşəbbüsü çərçivəsində təşkil olunan silsilə tədbirlərdən biridir.

V.Kumar Hindistanın dünyanın ikinci ən böyük tekstil və geyim istehsalçısı olduğunu vurğulayıb. Deyib ki, toxuculuq və geyim sənayesi Hindistan ÜDM-in 2,3 faizini və ixracının 12 faizini təşkil edir. Ölkədə 45 milyona yaxın insan tekstil və əl toxuculuğu sektorunda çalışır.

Diplomat həmçinin Hindistan və Azərbaycan arasında tekstil və geyim sektorunda əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirib. Vurğulayıb ki, bu moda nümayişi iki ölkə arasında ikitərəfli iqtisadi əlaqələrin inkişafına kömək edəcək.

O, tamaşaçıları sentyabrın 2-dən 12-dək Bakı İdman Sarayında keçiriləcək "Best of India" sərgisini ziyarətə, Hindistandan gətirilən yüksəkkeyfiyyətli məhsul və xidmətlərlə tanış olmağa dəvət edib.

Azərbaycanlı modellərin nümayiş etdirdiyi hind sariləri, gəlinlik lehanqalar və kolilər, şalvar və kostyumlar, Qərb stilində olan şənlik geyimləri, yüksək dəb geyimləri tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

## Xronoqraf

# Tarixdə bu gün

*Zamanın səhifələrində qalan olaylar, faktlar...*

### 642 il əvvəl...

**8 sentyabr 1380-ci ildə** rus knyazlıqları ilə Qızıl Ordanın qoşunları arasında Kulikovo (Don çayının sahilində) döyüşü olub. Vladimir və Moskva knyazı Dmitri İvanoviçin (Dmitri Donskoy) ordusu Qızıl Orda xanı Mamayın başçılıq etdiyi qoşunları məğlub edib. Bu məğlubiyyətdən sonra Qızıl Ordanın rus knyazlıqları üzərində hökmranlığı zəiflədi. Bununla belə, monqol-tatarların hökmranlığına rəsmən 1480-ci ildə son qoyuldu.

### 210 il əvvəl...

**7 sentyabr 1812-ci ildə** Rusiya-Fransa müharibəsi gedişində Borodino kəndi yaxınlığında (indiki Moskva vilayətinin Mojaysk rayonunun ərazisində) böyük döyüş olub. İki böyük sərkərdənin – Napoleonla Kutuzovun üz-üzə gəldiyi döyüşdə Fransa qoşunları məğlub olub. Napoleonun ordusu 58 min nəfər (o cümlədən 47 general), Rusiya qoşunları 44 min nəfər (o cümlədən 23 general) itki verməsdi.

### 200 il əvvəl...

**7 sentyabr 1822-ci ildə** Portuqaliyanın Cənub Amerikadakı ən böyük müstəmləkəsi olan Braziliya müstəqilliyini elan edib. Ölkə 1889-cu ildə Britaniya Federativ Respublikası, 1891-ci ildə isə Braziliya Birləşmiş Ştatları adını aldı.

### 121 il əvvəl...

**6 sentyabr 1901-ci ildə** Buffalo şəhərində (Nyu-York ştatı) keçirilən Panamerika sərgisinin açılışında iştirak edən ABŞ-ın Prezidenti Vilyam Mak-Kinliyə sui-qəsd olub. Anarxist qruplaşma üzvü Leon Çolqoş açdığı atəşlə onu ölümcül yaralayıb. V.Mak-Kinli 8 gün sonra vəfat edib.

### 104 il əvvəl...



**6 sentyabr 1918-ci ildə** Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin başçılığı ilə nümayəndə heyəti İstanbulda Osmanlı Sultanı VI Mehmet Vahdettin tərəfindən qəbul edilib. Bu, Xalq Cümhuriyyəti heyətinin ilk xarici səfəri idi. Görüşdə Cümhuriyyətə əlavə hərbi yardım və Bakının azad olunması məsələsi əsas mövzu olub.

### 97 il əvvəl...

**7 sentyabr 1925-ci ildə** Vyanada (Avstriya) keçirilən beynəlxalq konfransda Beynəlxalq Cinayət Polisi Komissiyası yaradılıb. 1946-cı ildə qurum İnterpol (Beynəlxalq Polis) adlandırılıb.

### 81 il əvvəl...

**8 sentyabr 1941-ci ildə** İkinci dünya müharibəsi gedişində Leninqradın blokadası başlanıb. Alman qoşunları 872 gün (1944-cü il yanvarın 27-dək) şəhəri blokadada saxlasalar da, ələ keçirə bilmədilər. Blokada başlananda şəhərdə 2,9 milyon nəfər vardı. Onlardan təxminən 800 mini aclıqdan və bombardmanlardan həlak olmuşdu.

### 54 il əvvəl...

**6 sentyabr 1968-ci ildə** Britaniyanın Afrikanın cənubundakı müstəmləkəsi olan Svazilend müstəqilliyini elan edib. Svazilend 1903-cü ildə Britaniyanın protektoratlığına keçmişdi.

### 31 il əvvəl...

**5 sentyabr 1991-ci ildə** Prezident Ayaz Mütəllibov Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaradılması barədə fərmanı verib. General-leytenant Valeh Bərşadlı müdafiə naziri təyin edilib. Amma ölkənin hələ ordusu yox idi. 9 oktyabrda Ali Sovet Azərbaycan Silahlı Qüvvələrinin yaradılması haqqında qanun qəbul edib.

**7 sentyabr 1991-ci ildə** erməni təxribatçı dəstələri Dağlıq Qarabağ Muxtar Vilayəti Hadrut rayonunun (indi Xocavənd rayonun tərkibindədir) Tuğ kəndində 2 azərbaycanlı sakini öldürüb. Həmin gün Xankəndi yaxınlığında sərnişin avtobusunun atəşə tutulması nəticəsində 3 azərbaycanlı öldürülüb, 4 nəfər yaralanıb.

**8 sentyabr 1991-ci ildə** Azərbaycanda ilk prezident seçkiləri keçirilib. Ölkədəki əksər siyasi qüvvələrin boykot etdiyi və alternativ namizədin olmadığı seçkilərdə Azərbaycan KP MK-nın 1-ci katibi Ayaz Mütəllibovun prezident seçildiyi elan edilib. Mütəllibov 1990-cı ilin mayında Ali Sovet tərəfindən prezident seçilmişdi.

### 30 il əvvəl...

**8 sentyabr 1992-ci ildə** Azərbaycanla Yaponiya (ölkəmizin müstəqilliyini 1991-ci il dekabrın 28-də tanımışdı) arasında diplomatik münasibətlər qurulub.

### 24 il əvvəl...

**8 sentyabr 1998-ci ildə** Bakıda tarixi İpək Yolunun bərpası ilə bağlı Avropa Birliyinin TRACECA (Avropa-Asiya nəqliyyat dəhlizi) layihəsi üzrə beynəlxalq konfrans keçirilib. 32 ölkənin (o cümlədən 9 ölkə başçısı), 12 beynəlxalq təşkilatın iştirak etdiyi konfransda Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin yaradılması haqqında müqavilə imzalanıb.

**Hazırladı: V.Orxan**

"Mədəniyyət" qəzetinin kollektivi iş yoldaşları Şəmistan Yolçuzadəyə əzizi

**Allahverdiyeva Məfərənin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

# MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**Tiraj:** 5072. **Sifariş:** 2569

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641